**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN TƏNQİDİ REALİZMİNİN POETİKASI

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid
5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Ramiz Asəf oğlu Qasımov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Rəsmi opponentlər: | akademik, filologiya elmləri doktoru, professor<br>**Teymur Həşim oğlu Kərimli** |
| | filologiya elmləri doktoru, professor<br>**Yaqub Məhərrəm oğlu Babayev** |
| | filologiya elmləri doktoru, professor<br>**Asif Abbas oğlu Hacıyev** |
| | filologiya elmləri doktoru, dosent<br>**Salidə Şəmməd qızı Şərifova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri: ______________ | filologiya elmləri doktoru, professor<br>**İmamverdi Yavər oğlu Həmidov** |

# GİRİŞ

**Tədqiqatın aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan ədəbiyyatında tənqidi realizmin poetikasının elmi cəhətdən geniş, əhatəli, təfərrüatlı tədqiqi 1) tənqidi realizmin Azərbaycan ədəbiyyatındakı inkişaf vəziyyətinə, 2) tənqidi realizmin yaradıcılıq metodu və ya ədəbi cərəyan olması məsələsinə, 3) Azərbaycanda tənqidi realist ədəbiyyat və onun problemlərinə, 4) tənqidi realizmin yaranması, inkişafı, ədəbi-nəzəri əsasları kimi mühüm məsələlərə, 5) tənqidi realizmin ədəbiyyatda janr imkanları və poetik yaradıcılıq texnikasına aydınlıq gətirilməsi baxımından aktualdır. Mövzu bu sahədə ortaya çıxmış müxtəlif mübahisə, müzakirə və fərqliliklərin aydınlaşdırılması və vahid elmi-nəzəri fikrin ortaya qoyulması baxımından da aktualdır.

Ədəbi cərəyanların, məxsusi olaraq tənqidi realizmin öyrənilməsi Azərbaycan tənqidi düşüncə sistemi məsələsinə dair tutarlı faktlar əldə edilməsinə şərait yaradır, bu sistemin milli oyanış və ictimai inkişafdakı yerini öyrənməyə imkan verir. Tənqidi realizm və ya tənqidi realist ədəbiyyat Azərbaycanda xalqın milli oyanışı və ictimai inkişafında mühüm xidmətlər göstərmişdir. Təsadüfi deyildir ki, tənqidi realizmin təşəkkül tapıb fəaliyyət göstərdiyi dönəm bir sıra mənbələrdə *"tənqidi realizm epoxası"*[1] adlandırılmışdır. C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və başqalarının əsərləri, tənqidi realizmin ədəbi cərəyan kimi formalaşması və inkişafına meydan verən "Molla Nəsrəddin" jurnalı özünəməxsus yaradıcılıq tərzi, məzmunu və mövzuları ilə geniş xalq kütlələrinin dünyagörüşünün artması və bir sıra məsələləri dərk emməsinə imkan yaratmışdır. Nəticədə xalq arasında maarif, mədəniyyət və ictimai ideallara olan maraq xeyli artmışdır. Ölkədə dövlət müstəqilliyinin qazanılması və Xalq Cümhuriyyətinin yaranmasında bu ədəbi cərəyanın və onun nümayəndələrinin misilsiz xidmətləri olmuşdur. Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev bu barədə demişdir: *"Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə ... Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaş-*

[1] Həbibbəyli, İ.Ə. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Ə.Həbibbəyli. – Bakı: Elm, – 2019. – s.243.

*masında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir. ...Cəlil Məmmədquluzadə bu gün ... bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır*"[2].

Tənqidi realizm ədəbi cərəyanı maarifçilik hərəkatının mütərəqqi ənənələri üzərində formalaşaraq romantizmə reaksiya kimi yaranmış, özünəməxsus poetikaya malik olmuş, Azərbaycan ədəbiyyatını zənginləşdirmiş, özünəxas mövqeyi ilə geniş xalq kütlələrinin ideallarını özündə əks etdirməklə xalqın milli şüur səviyyəsinin artmasına böyük təsir göstərmişdir. Azərbaycan tənqidi realizmi özündən əvvəlki ədəbi ənənələrə sədaqət nümayiş etdirmiş, özünün yaradıcılıq ideyalarına uyğun olaraq əvvəlki mütərəqqi ədəbi ənənələr və səmərəli poetik vasitələrdən də faydalanmışdır. Bununla da əvvəlki ədəbi ənənələr və irəli sürülmüş fikirlərin məntiqi yekunu kimi ortaya çıxan tənqidi realizm Azərbaycan xalqının arzu, ideal və yaradıcılıq uğurlarının əks olunduğu, istedadının əksini tapdığı xalq ədəbiyyatı, klassik irs, əvvəlki fəlsəfi fikir və dəyərlərdən faydalanaraq onları yeni əsrdə davam və inkişaf etdirmiş, XX əsr kimi mühüm bir tarixi inkişaf epoxasında xalqın milli kimliyi məsələsilə ictimai mübarizədə iştirak etmişdir. Tənqidi realizmin nümayəndələri həyat hadisələrinə sədaqət göstərərək ictimai məzmunu – real ictimai-tarixi şərait, hadisə və əhvalatları, dövrün başlıca xarakter və tiplərini ədəbiyyata gətirməklə öz ideallarına uyğun olaraq ictimai inkişafın istiqamət, məzmun və gedişatı haqqında fikirlərini ifadə etməyə çalışmışlar. Milli ictimai inkişafa maneə, əngəl olan mövcud problem və nöqsanları tənqid və ifşa yolu tutan tənqidi realizm islahatçı üslubu ilə səciyyələnmiş, inqilabi – dəyişdirici məzmun kəsb etmiş, ictimai proseslərin gedişinə real təsir etmək məqsədi güdmüşdür. Azərbaycan tənqidi realizmi bu yolda özünün ədəbi üslubunu milli köklərə – şifahi xalq ədəbiyyatı və klassik ədəbi ənənələrə söykənərək milli tənqidi düşüncə sistemi və xalq gülüşündən faydalanmaqla özünəməxsus poetika formalaşdırmışdır. Azərbaycan milli tənqidi realizmi daha fəal və təsirli ədəbi cərəyan kimi ölkədə gedən ictimai proseslərə şəkil və məzmun verməyə müvəffəq olmuş, milli düşüncənin formalaşmasında böyük xid-

---

[2] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Dekabr, 1994 – iyun, 1995 / H.Ə.Əliyev, buraxılışa məsul: R.Mehdiyev, H.Orucov. – Bakı: Azərnəşr, – k.3. – 1997. – s.77-78.

mətlər göstərmişdir. Bütün bunlara əsaslanaraq qətiyyətlə demək olar ki, tənqidi realizmin həm bir ədəbi cərəyan kimi, həm də poetikası baxımından öyrənilməsi yeni dövr – müstəqillik dövrü ədəbiyyatımız və düşüncəmiz üçün olduqca əhəmiyyətlidir.

Tənqidi realizmin bir ədəbi cərəyan olaraq özünəməxsus poetikası ilə öyrənilməsi müstəqillik dövrünün verdiyi imkanlar daxilində XX əsrin əvvəlləri kimi mühüm, mürəkkəb və ziddiyyətli bir dövrə yenidən qayıtmaq, həmin dövrün ədəbi-ictimai fikrinə aydınlıq gətirmək, milli-ictimai düşüncənin əsas məzmununu təşkil edən cərəyanları təhlil etmək baxımından da aktualdır. Mövzu həm Azərbaycan ədəbiyyatşünaslığında ümumən "poetika" anlayışının, həm də məxsusi olaraq tənqidi realizm kimi inkişaf etmiş ədəbi cərəyanın poetikasının öyrınilməsi baxımından əhəmiyyətlidir. Məlum olduğu kimi, ilk poetika anlayışı dünya ədəbi fikri və ədəbiyyatşünaslıq elminin atası olan Aristotelin məşhur "Poetika" əsəri ilə işlənməyə başlamış, əsasən ədəbi fakt və ya hadisəni şərh edən mühüm ədəbi-nəzəri məsələləri əhatə etmiş, şeir sənəti kimi səciyyələndirilmişdir[3]. Ədəbiyyatşünaslığın ən qədim anlayışlarından olan poetika "*yaradıcılıq məharəti, yaradıcılıq texnikasıdır. ...Orta əsrlərdə, intibah və pizzaların klassizmində, poetika sənət əsərlərinin formasının xüsusiyyətlərini dərk edirdi. XIX-XX əsrlərdə ədəbi tənqidin kompozisiya, dil, versifikasiyanı öyrənən həmin hissəsi poetika hesab olunurdu. Poetikanı stilistika ilə eyniləşdirməyə, növlərin, janrların, istiqamətlərin və cərəyanların poetikası haqqında təcrübə əldə etməyə cəhdlər edilir*"[4]. Yunanca "poetik sənət" mənası verən *ποιητική τέχνη* (*poietike*) sözündən yaranmış "poetika" termini ədəbiyyat nəzəriyyəsinin ədəbi əsərlərdə ifadə vasitələri sistemini öyrənən bölməsi kimi belə izah edilir: "*bu vasitələrin repertuarını sistemləşdirir – səs* [*Poeziya*], *dil* [*Üslubiyyat*], *obrazlı* [*mövzu*]. *Şəxsi poetika ayrı-ayrı əsərlərdə və ya bir qrup əsərdə* [*yazıçı yaradıcılığı, ədəbi cərəyan, dövr və s.*] "*dünya obrazı*" *və* "*müəllif obrazı*"*nın yaradılmasında bu vasitələrin* [*Kompozisiya*] *qarşılıqlı təsirini öyrənir. ...Geniş mənada poetika*

---

[3] Aristoteles. Poetika / Aristoteles, çevireni İ.Tunalı. – İstanbul: Evrim Matbaacılık, –1987. – s.105.

[4] Поэтика художественного произведения [Электрон ресурс] / URL: https://studbooks.net/17035/literatura/poetika_hudozhestvennogo_proizvedeniya.

*ümumən ədəbiyyat nəzəriyyəsi ilə, dar mənada – bədii əsərin dilinin öyrənilməsi ilə üst-üstə düşür. "Poetika" termini həm də şairə, cərəyana, millətə, dövrə xas olan bədii vasitələr sistemini ifadə edir*"[5]. Bu baxımdan Azərbaycan tənqidi realizminin poetikasının – onun təşəkkülü, ədəbi-nəzəri əsasları, ideyalar aləmi, obrazlar qalareyası, janrlar sistemi, qəhrəman problemi, dildən istifadə manevrləri kimi monoqrafik planda öyrənilməsi müasir ədəbiyyatşünaslığın zəruri ehtiyaclarına cavab verir.

Mövzunun araşdırılması həm də o ehtiyacdan irəli gəlir ki, Azərbaycan ədəbiyyatşünaslığında uzun zaman tənqidi realizmin ədəbi cərəyan, yaxud ədəbi metod olması, habelə hansı xüsusiyyətlərlə təzahür etməsi fikir dolaşıqlığı yaratmış, konkret şəkildə əsaslandırılmamışdır. Bundan başqa, Azərbaycan ədəbiyyatında tənqidi realizmin dövrləşdirilməsi məsələsinə fərqli münasibətlər göstərilmiş, onun Azərbaycan ədəbiyyatında mövcudluğu şübhə altına alınmış, mahiyyəti dolaşıq fikirlərlə şərh edilmiş, gah M.P.Vaqif, gah A.Bakıxanov, gah M.F.Axundzadə, gah da C.Məmmədquluzadədən başlaması fikirləri irəli sürülmüşdür. Fikrimizcə, M.P.Vaqifdən başlayan realizmin tənqidi realizm kimi səciyyələndirilməsi onu ədəbi metod kimi müəyyənləşdirməkdən irəli gəlmişdir. Əslində, bu problem təkcə Azərbaycan ədəbiyyatşünaslığı üçün deyil, bütövlükdə dünya ədəbiyyatşünaslığı üçün hələ də mövcud olan problemlərdən biridir. Məlum olduğu kimi, dünya ədəbiyyatşünaslığında daha çox "realizm" terminindən istifadə edilir və realizm ümumi keyfiyyətlər daşıyan ədəbi cərəyan kimi təqdim edilir. Bunun həm də problemə yanaşmada metodoloji məsələ kimi səciyyələndirildiyini, tənqidi düşüncə metodu ilə ədəbi cərəyanın bir-biri ilə qovuşuq şəkildə baxılmasının nəticəsi kimi meydana gəldiyini nəzərə alsaq, dissertasiyanın mövzusu həmin problemin ayırd edilməsi baxımından aktualdır. Azərbaycan ədəbiyyatşünaslığındakı erkən realizm, maarifçi realizm və tənqidi realizmin mərhələli bölgüsü isə rus ədəbiyyatşünaslığının yanaşma metodundan irəli gəlmişdir. Bu isə özlüyündə mərhələlərin hansı fərqli adla adlandırılmasından asılı olmayaraq bir ədəbi metod olaraq yanaşma tezisinin elmi ifadəsi kimi ortaya çıxmışdır. Bu səbəbdən Azərbaycan ədə-

---

[5] Большой Энциклопедический словарь [Электрон ресурс] / URL: https://dic.academic.ru/dic.nsf/enc3p/242178.

biyyatşünaslığında tənqidi realizm ədəbi cərəyanına adından tutmuş keyfiyyətlərinə qədər müxtəlif yanaşmalar mövcud olmuş, bəzən bir metodun mərhələləri, bəzən də müxtəlif cərəyanlardan biri kimi yanaşma nümayiş etdirilmişdir. Bu dissertasiyada məhz belə problemlərə yeni elmi yanaşma tətbiq etməklə vahid fikir ifadə etməyə cəhd göstərilir. Tədqiqatın mövzusu bu cəhətdən də aktualdır.

Dissertasiyada tənqidi realizmin poetik sisteminə daxil olan, lakin Azərbaycan ədəbiyyatşünaslığnda kifayət qədər bəhs olunmuş, ciddi sanbala malik tezis və nəticələr müzakirə obyekti olan bəzi məsələlərlə bağlı təkrara yol verilməmsi məqsədilə burada xatırladılmır. Tədqiqatda tənqidi realizmin janr poetikasını ehtiva edən tənqidi realist dramaturgiya, tənqidi realizmdə satira və yumor və başqa belə problemlərdən bəhs edilməməsi də məhz bundan qaynaqlanır. Bundan başqa, mövzu ilə bağlı ayrıca monoqrafiyada əhatəli bəhs etdiyimiz bəzi məsələlərə dissertasiyada geniş yer verməmişik.

Dissertasiyanın mövzusu ilə bağlı bəzi məsələlərə müxtəlif tədqiqat əsərlərində yalnız ötəri şəkildə toxunulmuşdur. Bu baxımdan o, Azərbaycan ədəbiyyatşünaslığında yenidir. Tənqidi realizm ədəbi cərəyanından hələ görkəmli ədiblər C.Məmmədquluzadə və M.Ə.Sabirin sağlığında, "Molla Nəsrəddin" jurnalının fəaliyyət göstərdiyi dönəmlərdə yazılan əsərlərdə müəyyən qədər bəhs edilmişdir. Tənqidi realizmin poetikasını əhatə edən bəzi məsələlər də bu ədəbi cərəyanı görkəmli nümayəndələrinin yaradıcılığını araşdırmış Ə.Nazim[6], Mir Cəlal[7], M.İbrahimov[8], M.Cəfər[9], C.Xəndan[10], Ə.Mirəhmədov[11], T.Mütəllimov[12], F.Hüseynov[13], İ.Həbibbəyli[14], Y.Qarayev[15],

---

[6] Nazim, Ə. Seçilmiş əsərləri / Ə.Nazim. - Bakı: Yazıçı, –1979. –374 s.

[7] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917) / M.Cəlal. –Bakı: Ziya&Nurlan, –2004. –391 s.

[8] İbrahimov, M.Ə. Əsərləri: [10 cilddə] / M.Ə.İbrahimov. – Bakı: Yazıçı, – c.9. – 1982. –206 s.

[9] Cəfər, M.Z. Cəlil Məmmədquluzadə / M.Z.Cəfər. –Bakı: Çinar–Çap, –2002. – 72s.

[10] Xəndan, C. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri / C.Xəndan. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –1962. –436 s.

[11] Mirəhmədov, Ə.M. Azərbaycan Molla Nəsrəddini / Ə.M.Mirəhmədov. – Bakı: Yazıçı, –1980. –480 s.

[12] Mütəllimov, T.M. Əbdürrəhimbəy Haqverdiyevin poetikası / T.M.Mütəllimov. – Bakı: ADU, –1988. –323 s.

A.Hacıyev[16], İ.Ağayev[17], B.Əhmədov[18] və başqa tədqiqatçıların əsərlərində toxunulmuşdur. Bundan başqa, T.Salamoğlu[19], T.Məmməd[20], Ş.Alışanlı [21], T.Əlişanoğlu [22], A.Məmmədli [23], S.Vəliyeva [24], Ə.Əzimli[25], S.Vahabova[26], Ş.Əliyeva[27] və başqalarının əsərlərində də tənqidi realizm ədəbi cərəyanının müəyyən məsələlərinə qismən münasibət göstərilmişdir. Lakin tənqidi realizmin poetikası ilk dəfə məhz bu dissertasiyada geniş şəkildə araşdırılır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan ədəbiyyatı tarixi və onunla bağlı materiallar, xüsusən tənqidi realist ədəbiyyat, predmetini isə tənqidi realist ədəbiyyatın poetikası –

---

[13] Hüseynov, F.C. Adi əhvalatlarda böyük həqiqətlər / F.C.Hüseynov. – Bakı: Gənclik, –1977. –184 s.

[14] Həbibbəyli, İ.Ə. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Ə.Həbibbəyli. –Bakı: Elm, –2019. –452 s.

[15] Qarayev, Y.V. Realizm: sənət və həqiqət / Y.V.Qarayev. –Bakı: Elm, – 1980. – 259 s.

[16] Гаджиев, А. Азербайджанский реализм / А.Гаджиев. –Баку: Язычы, –1984. – 240 с.

[17] Ağayev, İ.M. "Molla Nəsrəddin"in poetikası / İ.M.Ağayev. – Bakı: Elm, – 1985. – 168 s.

[18] Əhmədov, B.B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.B.Əhmədov. –Bakı: Elm və təhsil, –2015. –552 s.

[19] 195. Salamoğlu, T.S. Azərbaycan tənqidi realizminin estetikası [C.Məmmədquluzadə və M.Ə.Sabir yaradıcılığı əsasında] / T.S.Salamoğlu. – Bakı: Orxan NPM, – 2018. – 184 s.

[20] Məmməd, T.Q. XX əsr Azərbaycan dramaturgiyasının poetikası / T.Q.Məmməd. – Bakı: Elm, – 1999. – 208 s.

[21] Alışanlı, Ş.H. Bədii metodun tipoloji tədqiqi // "Ədəbiyyat və incəsənət" qəz., 1979, 24 avqust.

[22] Əlişanoğlu, T.Ə. XX əsr Azərbaycan nəsrinin poetikası / T.Ə.Əlişanoğlu. – Bakı: Elm, – 2006. – 312 s.

[23] Məmmədli, A.M. "Molla Nəsrəddin" ədəbi məktəbində milli varlıq problemləri / A.M.Məmmədli. – Bakı: Elm, – 2012. – 240 s.

[24] Vəliyeva S.M. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi / S.M.Vəliyeva. – Bakı, Azərbaycan Universiteti nəşriyyatı, – 2002. – 140 s.

[25] Əzimli, Ə.T. Cəlil Məmmədquluzadə nəsrində təhkiyə poetikası / Ə.T.Əzimli. – Naxçıvan: Əcəmi, – 2005. – 72 s.

[26] Vahabova, S.İ. Cəlil Məmmədquluzadə nəsrinin poetikası / S.İ.Vahabova. – Bakı: Elm və Təhsil, – 2013. – 164 s.

[27] Əliyeva, Ş.Ş. Azərbaycan tənqidi realist dramaturgiyasında dialoq və monoloq: / fil. elm. dokt. ... dis. avtoreferatı. / – Bakı, 2022. – 32 s.

tənqidi realizmin ədəbi-nəzəri əsasları, ədəbi-bədii vasitələri, bədii əsərlərdəki poetexnikası və s. təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Azərbaycan tənqidi realizminin poetikasını müəyyənləşdirməkdir. və tədqiqata cəlb edərək təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi müəyyənləşdirilmişdir:

– tənqidi realizmin ədəbi cərəyan və ya metod olmasını elmi yanaşma ilə müəyyənləşdirmək;

– tənqidi realizmin formalaşdığı ictimai-tarixi şəraitə nəzər salmaq və onu formalaşdıran ictimai-tarixi səbəbləri göstərmək;

– tənqidi realizmin təşəkkülünü izləmək;

– tənqidi realizm ədəbi cərəyanının ədəbi-nəzəri, fəlsəfi əsaslarını üzə çıxarmaq;

– tənqidi realizmin ədəbi-bədii sərhədlərini müəyyən etmək;

– “Molla Nəsrəddin” jurnalının tənqidi realizmin təşəkkülündəki yeri və rolunu qiymətləndirmək;

– tənqidi realizmin poetik xüsusiyyətlərini üzə çıxarmaq;

– tənqidi realizmin ideya-fikir platformasına nəzər yetirmək, başlıca ideyalarını azərbaycançılıq mövqeyindən qiymətləndirmək;

– tənqidi realizmin klassik irsdən – folklor və klassik ədəbi ənənələrdən necə faydalandığını müəyyən etmək, milli tənqidi düşüncə, Molla Nəsrəddin lətifə yaradıcılığının xalq bədii tənqidi ilə əlaqələrini aşkarlamaq;

– tənqidi realizmdə dinə münasibət məsələsini şərh etmək, habelə dini fanatizmin, fürsətgir din xadimlərinin ciddi tənqid və ifşa edilməsinin səbəblərini aydınlaşdırmaq;

– tənqidi realizm ədəbi cərəyanının janr imkanları və bədii texnikasını üzə çıxarmaq;

– Azərbaycan tənqidi realizminin özünəməxsusluğunu təşkil edən satira və yumor texnikasından istifadə məsələsini şərh etmək;

– Azərbaycan tənqidi realistlərinin dilini təhlil etmək, tənqidi realist ədəbi cərəyanının dil haqqında görüş və mövqelərini müəyyənləşdirmək, dildən istifadə texnika və manevrlərini konkret örnəklərlə göstərmək;

– tənqidi realist poetikada dialoq və monoloqların yerini müəyyənləşdirmək;

– tənqidi realizmdə Sokrat metodu və onun mühakimə texnikasını şərh etmək;

– Azərbaycan tənqidi realizmi üçün səciyyəvi və özünəməxsus poetik vasitəyə çevrilmiş metaforik obrazları göstərmək.

**Tədqiqatın metodları**. Tədqiqat zamanı təsvir, tarixi-müqayisəli, tipoloji və ədəbi təzahürlərin təsirlər, təmaslar və bu təzahürlərin tarixi, milli, fərdi kimi modifikasiyalarından asılı olmayan ümumiliyini üzə çıxarmağa imkan verən tipoloji analogiyalar metodu, həyati təzahürlərin seçilməsi, onların uydurma və söz vasitəsilə obyektiv dünyanın subyektiv obrazına çevirmə prinsipləri sistemindən ibarət olan bədii metod, estetik dəyərli obyektin bədii strukturunu dil vasitəsilə tədqiq edən immanent analiz, statistik təhlil kimi induktiv və deduktiv metod və üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Tədqiqat işində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

– Tənqidi realizm tənqidi düşüncə metodu üzərində yaradıcılıq fəaliyyəti göstərən, tənqidi bədii idrak həyata keçirən islahatçı ədəbi cərəyandır. Tənqidi realizm varlığa mövcud düşüncə ehkamı və çərçivəsindən fərqli tərəflərdən yanaşmağı öyrədən idrak və əksetdirmə metodudur;

– Tənqidi realizm ədəbi cərəyanı ictimai-tarixi səbəblərə bağlı olaraq pozitivist-maarifçi hərəkatın ənənələri üzərində və romantizmə ictimai-bədii reaksiya olaraq yaranmışdır;

– Tənqidi realizm insan probleminə ictimai münasibətlər müstəvisində yanaşır, onları hərəkətə gətirən (və ya ətalətə məhkum edən!) mənəvi, psixoloji, sosial, iqtisadi mətləbləri, eləcə də yaşamaq həqiqətinə çevirdikləri motivasiya və ehkamları tənqidə, yeni tələblər kontekstində yanaşmaya məruz qoyur;

–Tənqidi realizm bədii ədəbiyyatda aparıcı konsepsiya təşkil edən humanizm, pozitivizm və klassik irs - folklor və klassik ədəbiyyat ənənələrinə söykənərək ədəbi-bədii və ictimai fəaliyyət göstərmiş, xalqın tənqidi düşüncə sistemi, yaradıcılıq üslubu və dilini yeni milli ədəbiyyatın meyarına, ana qanununa çevirmişdir;

– Azərbaycan tənqidi realizmi özünəməxsus poetika və poetexnikaya malik ədəbi cərəyandır. Tənqidi realizm xalq gülüşü və yumoru, milli tənqidi düşüncə sistemi və klassik ədəbi ənənələrdən qaynaqla-

nan özünəməxsus janr sistemi və yaradıcılıq poetexnikası ortaya qoymuşdur;

–Tənqidi realist poetikada bədii dil Sokrat metoduna əsaslanan mühakimə texnikasına malik bədii yaradıcılıq vasitəsi olmuş, məntiqi nəticəyə gəlmə və hökmçıxarma texnikası əks etdirən bədii üslub olaraq bilikvermə funksiyası həyata keçirmişdir;

– Tənqidi realizmin poetik dili sadə xalqı bilikləndirmək və yeni düzənə hazırlamaq məqsədinə uyğun olaraq anlaşıqlı şəkildə qurulmuşdur. Tənqidi realizm bədii dildən istifadə zamanı idrak və əksetdirmə məqsədini ehtiva edən yaradıcılıq üslubu yaratmış, dildən – onun sintaksisi, lüğət ehtiyatı və ifadəlilik imkanlarından məqsədyönlü yararlanaraq özünəməxsus bədii dil, ifadə tərzi və üslub formalaşdırmışdır;

–Tənqidi realist poetikada qəhrəman ictimai münasibətlər sistemində təqdim edilmiş, qəhrəmanının mənəvi aləmi və psixoloji dünyası, ictimai nöqsanların göstərilməsi yolu ilə varlığın və ya ictimai sistemin dəyişdirilməsi və islah edilməsi fikri ehtiva edilmiş, arzulanan qəhrəman və həyat idealı yaradılmışdır;

– Tənqidi realist sənətkarlar öz yaradıcılıq keyfiyyətləri və fəaliyyət sahələri ilə özünəməxsusluğa və fərqliliklərə malik olmuşlar. Tənqidi realizmin poetikasında uzunqulaq, küpə, şallaq, dəyənək, yantütəyi və s. əşya və hadisələr xüsusi məna yükünə malik obrazlar olaraq tənqid və islah işi həyata keçirmişlər.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibrətdir:

– ilk dəfə bu tədqiqat işində tənqidi realizm ədəbi cərəyanına xas olan poetika geniş, təfərrüatlı, bitkin bir planda tədqiq edilmişdir;

– tənqidi realizmin təşəkkülü və inkişafı tarixi daha geniş planda, bütün ədəbi mərhələlər və ənənələr kontekstində səbəb-nəticə əlaqələrilə araşdırılmışdır;

– ilk dəfə tənqidi realizmin yaradıcılıq metodu və ya düşüncə metodu olduğu, "tənqidi" epitetinin islahatçı məzmuna malik olduğu, tənqidi realizmin həm düşüncə-təhlil metodu, həm də bu metoda əsaslanan bir ədəbi cərəyan olduğu göstərilmişdir;

– ilk dəfə burada tənqidi realizm ədəbi cərəyanını meydana gətirmiş ədəbi-fikri ənənələr araşdırılmış, tənqidi realizmin milli tənqidi düşüncə sisteminin, müxtəlif mərhələlərdə ədəbi-fikir tarixində yer almış cərəyanların, xüsusilə XIX əsr pozitivizmi və maarifçiliyinin

təsirləri altında romantizmə reaksiya olaraq yarandığı aydınlaşdırılmışdir;

– ilk dəfə tənqidi realizmin ədəbi cərəyan kimi təşəkkülü məsələsi daha konkret və problematik səviyyədə tədqiqata cəlb edilmiş, Eynəli bəy Sultanovun bədii nəsrinin maarifçi realizmdən tənqidi realizmə keçiddəki ədəbi-bədii rolu müqayisəli təhlil fonunda əsaslandırılaraq göstərilmişdir;

– tənqidi realizmin ədəbi-nəzəri əsasları konkret örnəklər fonunda təqdim edilmiş, özünəməxsus yaradıcılıq metodu və bədii vasitələrinə malik olan tənqidi realizmin təhlilçi və islahatçı xüsusiyyətə malik olduğu, ictimai düşüncə modeli ortaya çıxardığı və tənqidi ictimai dərk modeli meydana qoyduğu göstərilmişdir;

– Azərbaycan tənqidi realizminin nəzəri və metodoloji cəhətdən söykəndiyi əvvəlki ənənələr və nəzəri məsələlər ilk dəfə məntiqi əlaqələr kontekstində araşdırılmış, klassik irs və şifahi xalq ədəbiyyatından yaradıcı istifadəsi, şifahi xalq ədəbiyyatı və düşüncəsində, xüsusilə lətifə janrında mövcud olan ictimai-bədii dərk metodundan faydalandığı, tənqid, ifşa və gülüş üslubunu xalq gülüş texnikasından faydalanmaqla zənginləşdirməsi faktı şərh edilmişdir;

– Azərbaycan tənqidi realizminin xalq gülüş ənənələri, Azərbaycan humanizm ədəbiyyatı ənənələri və ideyaları ilə əlaqəli olduğu araşdırılmış, maarifçi realizmin nəzəri əsasları üzərində formalaşdığı müəyyənləşdirilmişdir;

– Tənqidi realizmin köhnəlmiş, mürtəce şəriət qaydaları və fürsətgir din xadimlərinə kəskin, geniş tənqidi yanaşmasının onların dinə olan islahedici münasibəti və dini islahatçılığının nəticəsi kimi şərh edilmişdir;

– Tənqidi realizmin Sokrat təlimi ilə əlaqələri təhlil edilmiş, tənqidi realizmdə Sokrat metodunun xüsusi yer tutması və örnəkləri göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Elmi-tədqiqat işinin tezis, nəticə və qənaətləri müasir ədəbiyyatşünaslıq elmində, xüsusilə ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid, ədəbiyyat tarixi, habelə sənətşünaslıq və digər sahələrdə istifadəsi üçün nəzəri və praktik əhəmiyyət kəsb edir. Xüsusilə ədəbi cərəyanlar mövzusu və problemi ətrafında elmi tədqiqatlarda dissertasiyanın elmi nəticələri və tezisləri mühüm mənbə və elmi baza kimi istifadəyə yararlıdır. Müxtəlif elmi nəşrlə-

rin, dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında, eləcə də bu mövzuda dərslərin tədrisində də bu dissertasiyanın elmi nəticə və tezislərindən istifadə olunması faydalılıq kəsb edir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 24 yanvar 2014-cü il tarixli (protokol №3) qərarı ilə təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Filologiya Problemləri üzrə Elmi Şuranın 20 aprel 2017-ci il tarixli iclasının qərarı ilə (protokol №4) qeydiyyata alınmışdır.

Tədqiqatın əsas məzmunu 3 monoqrafiyada, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestatiya Komissiyası tərəfindən tövsiyə edilən nüfuzlu elmi jurnal və məcmuələrdə, xarici elmi nəşrlərdə, beynəlxalq səviyyəli konfrans və simpozium materiallarında nəşr olunmuş əsərlərdə əksini tapmışdır.

Dissertasiyanın nəticələrindən Azərbaycan ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid, o cümlədən sənətşünaslıq sahələrində tətbiqi mümkündür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi AMEA-nın Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya "Giriş", dörd fəsil, "Nəticə" və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. "Giriş" 21 924 ş. işarə, I fəsil 107 043 ş. işarə, II fəsil 199 830 ş. işarə, III fəsil 64 553 ş. işarə, IV fəsil 115 383 ş. işarə, "Nəticə" – 4 486 ş. işarə olmaqla dissertasiyanın ümumi həcmi 513 219 ş. işarə təşkil edir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin I fəsli **“Azərbaycan ədəbiyyatında tənqidi realizmin təşəkkülü və ədəbi-nəzəri məsələləri”** adlanır. Bu fəslin **“Azərbaycan ədəbiyyatında realizmin inkişaf problemləri”** adlanan birinci paraqrafında Azərbaycan ədəbiyyatında realizmin bir yaradıcılıq hadisəsi olaraq meydana gəlməsi və səciyyəvi məsələlərindən bəhs edilmişdir.

Azərbaycan ədəbiyyatında realizmin formalaşması özünəməxsus inkişaf tarixinə malikdir. Realizm bir yaradıcılıq üsulu olaraq ən qədim dövrlərdən ədəbiyyatda mövcud olmuş, romantizmin bətnində daşınaraq yeni dövrlərə gəlib çatmışdır. Hadisə və varlığın həqiqətinə sədaqət hadisəsi olan realizm Azərbaycan ədəbiyyatında XVII-XVIII yüz illər ədəbi mərhələsinin hadisəsi olaraq meydana gəlmişdir. Əvvəlki klassik ədəbi ənənələrin XVI yüzildəki bədii yekunu olan M.Füzuli yaradıcılığında özünü daha əsaslı şəkildə təzahür etdirməyə başlayan realizm sonrakı əsrlərdə bir az da inkişaf edərək tarixi mənzumələrdə inkişafa meyil göstərməyə başlamış, M.P.Vaqifin yaradıcılığında daha qabarıq, ardıcıl və başlıca bir üslub olaraq müəyyənləşmişdir. Vaqifin yaradıcılığındakı realizm mənbələrdə *“təsvirçi realizm”*[28], *“seyirçi realizm”*[29] və ya *“erkən realizm”*[30] olaraq adlandırılmışdır. Bu adlandırmalar, bizim fikrimizcə, metodoloji olaraq realizmi yaradıcılıq metodu olaraq səciyyələndirmək mahiyyəti kəsb edir. Bizim qənaətimizcə, ədəbi cərəyanlar baxımından Vaqifin yaradıcılığı naturalizmə uyğun gəlir. *“Əslində məhz bu yönə diqqət artırmaqla demək olar ki, bədii yaradıcılıq metodu olaraq Vaqifin yaradıcılığında təzahür edən realizm idisə, ədəbi cərəyan olaraq təzahür edən yaradıcılıq üsulunu, bizim fikrimizcə, naturalizm adlandırmaq daha doğru olar. Çünki məhz naturalizm realizm yaradıcılıq metodu ilə obyekti və ya predmeti bədii cəhətdən əks etdirərək onun təbiətdəki real varlığına uyğun olan əlamətləri birəbir təsvir etməyi başlıca məqsəd hesab etmişdir”*[31]. Bu ədəbi yaradıcılıq üsulu M.V.Vidadi-

---

[28] Dadaşzadə, A. Molla Pənah Vaqif: həyat və yaradıcılığı / A.Dadaşzadə. – Bakı: Azərbaycan EA nəşriyyatı, – 1966. – 189 s.

[29] Qarayev, Y.V. Realizm: sənət və həqiqət / Y.V.Qarayev. – Bakı: Elm, – 1980. – 259 s.

[30] Həbibbəyli, İ.Ə. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Ə.Həbibbəyli. – Bakı: Elm, – 2019. – 452 s.

[31] Qasımov, R.A. Azərbaycan ədəbiyyatında realizmin inkişaf problemləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, – 2024. №1. – s.215.

nin, sonrakı dövrlərdə Q.Zakirin, M.Ş.Vazehin, S.Ə.Şirvaninin, M.B.Nadimin və başqalarının yaradıcılıqlarında da davam və inkişaf edərək naturalizm cərəyanının müəyyənləşməsinə səbəb olmuşdur. Varlığı eynən, təbii halına uyğun təsvir və təqdim etmək üsulunun ardınca maarifçi realistlər qəhrəmanı, obraz və hadisələri ictimai ideallar kontekstində təqdim etmək yeniliyi nümayiş etdirməklə yeni ədəbi cərəyan formalaşdırırlar. Maarifçi realizm üçün ictimai taleyi pozitiv elmlər vasitəsilə maariflənmək və maarif yolu ilə cəmiyyəti dəyişdirməyə nail olmağın mümkünlüyünə inam bəslənilmişdir. Buna görə də maarifçi realizm üçün ictimai nöqsanları maarifsizliyin aqibətilə əlaqələndirmək başlıca şərt olmuşdur. A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani və başqalarının realizmi maarifçi realizm hərəkatı olaraq dəyərləndirilmiş, M.F.Axundzadə maarifçi realizmin zirvəsi hesab olunmuşdur.

Maarifçi realizm özündən sonra yeni ədəbi cərəyanların meydana gəlməsi üçün ideya-bədii zəmin olmuşdur. Bu ədəbi cərəyanın ardınca meydana gələn tənqidi realizm ədəbi cərəyanı özünün bədii keyfiyyət və forma xüsusiyyətləri, ideya və idealları ilə fərqlilik və özünəməxsusluq kəsb etmişdir. M.F.Axundzadə və ona qədərki böyük yazarların ədəbi ənənələrinin ardınca meydana gələn E.Sultanov və M.Şahtaxtılı yaradıcılığı özünün ədəbi-bədii keyfiyyətləri ilə yeni ədəbi cərəyanın zəminini formalaşdırmış və keçid rolu oynamış, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və b. kimi ədiblərin yaradıcılığı və "Molla Nəsrəddin" jurnalı vasitəsilə tənqidi realizm ədəbi cərəyanı yaranmışdır. Bu ədəbi cərəyan ilk dəfə obraz, hadisə və əhvalatı ictimai kontekstdə təqdim etməyə üstünlük vermiş, insanın sosial, ictimai keyfiyyətlərinə diqqət kəsilmiş və ən kiçik detallara enərək zərurilik əhəmiyyəti geyindirmişdir. İctimai tale məsələsini ön plana çəkən tənqidi realizm ictimai taleyin dönüş nöqtəsi olaraq hər bir sosial təbəqənin yeni çağırışlara hazır olmasını zərurət olaraq dəyərləndirmişdir. İlk dəfə "kiçik" adamı ədəbiyyata qəhrəman olaraq gətirərək xalqın taleyini inkişaf meyarına çevirmişdir.

**"Azərbaycan ədəbiyyatında tənqidi realizm ədəbi cərəyanı"** adlanan ikinci paraqrafın **"Tənqidi realizm ədəbi cərəyanını yaradan ictimai-tarixi səbəblər"** başlıqlı birinci bəndində tənqidi realizm ədəbi cərəyanını ictimai-tarixi səbəblərin ortaya çıxardığı əsaslandırılmışdır.

Məlum oldğu kimi, istər romantiklər, istərsə də realist olan sənətkarlar XX əsrin əvvəllərini inqilablar əsri, mühüm ictimai-tarixi mərhələ olaraq səciyyələndirmiş və milli tale baxımından mühüm dövr kimi yeni çağırış və vəzifələrə hazır olmağın zərurətini dilə gətirmişlər. Xalqın və vətənin ümummilli taleyi baxımından yeni dünya nizamınının meydana çıxdığı XX əsrin əvvəlləri üçün xalqın istiqlaliyyət və hüquqi islahatlarla yeni yaşayışa nail olması ehtiyacı ədəbiyyatın da vəzifəsinə çevrilərək yeni keyfiyyətli ədəbi hərəkatın meydana gəlməsinə zərurət yaratmışdır. Tənqidi realizm məhz bu cür mühüm tarixi missiya üçün ehtiyacı yerinə yetirmək vəzifəsini həyata keçirmək məqsədilə ədəbi cərəyan olaraq meydana çıxmış, inqilabi epoxanın ehtiyacından boy ataraq yaranmışdır. Yeni ictimai-iqtisadi formasiyanın ortaya çıxdığı, ciddi siyasi hadisələrin yaşandığı və elmi-texniki tərəqqinin dünyanı bir-birinə bağladığı bir zamanda müasir düşüncə, həyat və yaşayış yaratmaq zərurəti tənqidi realizm ədəbi cərəyanı ilə ədəbi missiyaya çevrilmişdir. İctimai-iqtisadi münasibətlərdə yeni dəyərlərin meydana gəlməsi ilə insanın da yeni dəyər qazanması məhz tənqidi realizm cərəyanı ilə ədəbiyyata gəlir. Yeni ictimai-iqtisadi münasibətlərin yaranması ilə insan da yeni məzmun – iqtisadi, ictimai, sosial, mənəvi, əxlaqi və s. məzmun kəsb edir. Məhz yeni ictimai-iqtisadi münasibətlər sisteminin yaranması ilə yeni dəyərlər sistemi, o cümlədən birgəyaşayış, düşüncə, əxlaq tərzinin yaranması da aktuallaşır və bu mühüm məsələlər tənqidi realizm cərəyanı ilə ədəbiyyatda yer alır. Buna görə idi ki, Azərbaycan ədəbiyyatında Məhəmmədhəsən əminin, Zeynəbin, Novruzəlinin, Usta Zeynalın, Məhəmmədəlinin, Usta Ağabalanın və başqa “saqqallı uşaq” və ümumən “kiçik” adamların, habelə ümumi tipik bir mühiti təmsil edən “danabaşlı”ların, “veyilabadlı”ların, müxtəlif “marallar”ın mövcud durumu və taleyi məsələsi başlıca yerdə gəlməyə başlayırdı. Artıq avamlıqla oyaqlığın savaşı öz təqdimini tapırdı. Yeni ictimai tələblər avamlığı, fanatizm, xurafat və cahilliyi, ətalət və əsaləti ortadan qaldırmağı tələb edirdi. Xudayarlar, Qazılar Məhəmmədhəsən əmiləri, Zeynəb anaları, Usta Ağabaları avamlığın qurbanına çevirərək istismar edirdilər, amma dövr və zaman Novruzəlilərə, fəhlə və kəndlilərə oyaq olmağı tələb edirdi. Ata Hacı Həsənlər, Mirzə Cavadlar avamlıq göstərib Şeyx Nəsrullahların dini yalanlarına inam gətirirdilərsə, artıq İsgəndər kimi oğullar Şeyx Nəsrullahlarla baş-başa gəlir,

Əhmədlər isə dövrün gedişatına ayaq uyduraraq yeni “danışan pir” icad edib qazanc mənbəyi açırdılar. Artıq Sabirin təsvir etdiyi kimi fəhlələr ağaların qapısında zar-zar ağlamağa gəlmir, *“Bu çərxi-fələk tərsinə dövran edir imdi, Fəhlə də özünü daxili-insan edir imdi*”[32] misrasında deyilən kimi etiraz və üsyan edirdilər. O cümlədən ədəbi əsərlərdə, habelə ictimai rəyin formalaşdırma vasitəsi olan publisistikada insan azadlıqları, onların maariflənməsi, öz hüquq və azadlıqlarını dərk məsələsi, yeni yaşayış qaydaları və qanunların təsbiti, sosial ədalət, yeni ictimai təsisat və s.-nin yaranması zərurəti ilə bağlı qaldırılan məsələlər artıq ictimai fikirdə tənqidi realizmin təşəkkülündən xəbər verirdi. Bu kimi ciddi fakt və şərtləri nəzərə almaqla demək olar ki, Azərbaycanda da tənqidi realizmi ortaya çıxaran ilkin təməl səbəb ictimai-tarixi şəraitin özü, inqilabi epoxa dönəmidir. *“Azərbaycan ictimai fikir tarixində tənqidi realizmin yarandığı məkan “Molla Nəsrəddin” jurnalı, ədəbiyyatda təşəkkülünə banis olan yaradıcılıq ünvanı Cəlil Məmmədquluzadə idi. Çünki məhz onun yaradıcılığında ilk dəfə insanlar – personajlar yeni ictimai-iqtisadi münasibətlər daxilində təqdim olunmağa və yeni münasibət və tələblər çərçivəsində ədəbi-bədii problem kimi ifadə olunmağa başlamışdır”*[33]. Dünyanın yeni inkişaf düzəni ilə ayaqlaşmaq üçün də maariflənmək və inkişaf etmək vəzifələrini də tənqidi realizm ümdə məqsəd olaraq müəyyənləşdirmişdir. Feodal-asılı münasibətlərdən fərqli olaraq sənayenin inkişafı və texniki tərəqqi ilə əlaqədar kapitalizmdə fəal ictimai insan probleminin ortaya çıxması, savadlı, öz işini bilən mütəxəssis və fəhlələrin tələb olunması, ümumdünya inkişafına inteqrasiya insana münasibətdə yeni tələblər müəyyənləşdirirdi. Ümumiyyətlə, Fransa burjua inqilabının baş verməsini hazırlayan ictimai düşüncədəki müasir elmi, ədəbi meyil və fikirlər olduğu kimi, inqilabın özü də fəlsəfədə, ədəbiyyat və sənətdə yeni ədəbi meyil və cərəyanların yaranmasını şərtəndirmiş, bu dəyişmə və meyillər digər xalqların düşüncəsinə, o cümlədən Rusiya və burada birgə yaşamağa məhkum edilmiş xalqlara da təsirini göstərmişdir. Bu səbəbdən idi ki, Azərbaycan tən-

---

[32] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir. – Bakı: Şərq–Qərb, – c.1. – 2004. – s.48.

[33] Qasımov, R.A. Azərbaycan ədəbiyyatında tənqidi realizm mərhələsi və banisi // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, – 2013. c.9. №1, – s.164.

qidi realizminin də başlıca səciyyəsi və keyfiyyətini inqilabi xarakter, hüquqi islahatların həyata keçirilməsi tələbləri təşkil etmişdir. *"Əsrin əvvəllərində baş verən inqilab etirazları və ictimai-siyasi təbəddülatı, milli oyanış, haqq-hüquq uğrunda mübarizələri Azərbaycan tənqidi realizmini yaradan vacib şərtlərdən idi. Tənqidi realizm dəyişmək və islahatçılıq xarakteri daşıyaraq tənqidi düşüncə və milli oyanış missiyası həyata keçirirdi"*[34]. İctimai passivliyin yaratdığı milli-fərdi faciə və fəal ictimai insanın yaranması ehtiyacı Azərbaycan tənqidi realizminin əlamətdar xüsusiyyəti kimi meydana çıxmışdır.

**"Tənqidi realist poetikaya müraciət zərurəti"** adlanan bənddə məhz bu ictimai ehtiyac və səbəblərin bədii məzmununa çevrilən yeni ədəbi-bədii poetikaya müraciət məsələsi təhlilini tapmışdır. C.Məmmədquluzadənin yazdığı kimi, islam aləmini - geniş kütlələrin taleyini və *"onların bədbəxtliyinin səbəbini"*[35] göstərmək məqsədi daşıyan Azərbaycan tənqidi realizmi *"...xalqı yazmaqnan və kinayə sözlərnən xabi-qəflətdən oyadıb"*[36] başa salmaq xarakterinə malik yeni ədəbiyyat ortaya qoyurdu. *"Bij-bij sözlər yazmaq, ona sataşmaq, buna dolaşmaq"*[37], *"məzhəkə şivəsi ilə danışmaq və istehzaya qoymaq"*[38] kimi tənqid və ifşa yükü, tənqidi realizmin poetikasını təşkil edirdi. Tənqidi realist poetikanı və üslubu ictimai-tarixi şərait və xalqın mövcud düşüncə imkanları təyin və müəyyən edirdi. *"Türkün açıq ana dilində"*[39] danışmaq, kinayəli sözlərlə yazmaq, avama ünvanlamaq, onun düşüncəsini oyatmaq və yeni həyata hazırlamaq məqsədinə uyğun poetika və üslub formalaşırdı. Gülüş və tənqid ağırlıqlı bədii ifadə tənqidi realist poetikanın xarakterini müəyyən edirdi. Hətta ciddi-ciddi həyat həqiqətlərini əks etdirmək, ona tənqidi münasibət bəsləmək tənqidi realist poetikanın səciyyəsində dayanırdı.

---

[34] Qasımov, R.A. Azərbaycan ədəbiyyatında realizmin inkişaf problemləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, – 2024, №1. – s.219.

[35] Cəlil Məmmədquluzadə. Felyetonlar, məqalələr, xatirələr, məktublar / – Tərtibçiləri: Z.Abbasov, R.İbrahimov, Ə.İbadoğlu. – Bakı: Azərb. SSR EA nəşriyyatı, – 1967. – s.715-716.

[36] Molla Nəsrəddin (satirik jurnal): [10 cilddə] / Akad.İ.Həbibbəylinin ümumi redaktəsi ilə. – Bakı: Şərq–Qərb, – c.1. – 2017. – s.185.

[37] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.2. – 2004. – s.155.

[38] Yenə orada. 608 s.

[39] Yenə orada. s.98.

**“Tənqidi realizmin ədəbi-nəzəri əsasları”** bəndində Azərbaycan tənqidi realizminin bədii inikas və poetik üslubunda varlığı dərk etmək və əks etdirmək prinsiplərinin dayandığı ədəbi-nəzəri məsələlər göstərilmiş və təhlil edilmişdir. Tənqidi realizm varlığı saf-çürük etmək, təhlil və ayırd etmək xüsusiyyətlərinə malik tənqidi düşüncə - idrak metodu üzərində mövcuddur. “Tənqid” sözü təhlil etmək, saf-çürük etmək, lazım olanı lazım olmayandan ayırmaq, köhnəni ortadan qaldırmaq, yenisini qurmaq, islah etmək kimi mənalarla tənqidi realizmə özünəməxsus idrak və əks etdirmək səciyyəsi qazandırmışdır. Məlum olduğu kimi, Azərbaycan tənqidi realizminin əsas səciyyəsini mövcud varlığın çatışmyan, eyib və nöqsanlarını göstərmək təşkil etmişdir. C.Məmmədquluzadə öz yaradıcılıq tərzləri barəsində *“ağzımızı xeyirliyə aça bilmirik. Düz ilə işimiz yoxdur. Yaxşılığınıza yamanlıqla cavab verəcəyik. ...bizim bu yamanlığımız məcmuəmizin təbiətindəndir*”[40] deyərkən məhz yaradıcılıq üslublarının xarakterindən bəhs etmişdir.

Tənqidi realizmi səciyyələndirən və fərləndirən başlıca xüsusiyyət onun qəhrəman və hadisələrə ictimai məzmun verməsi, xüsusilə problemi ictimai münasibətlər daxilində təqdim etməsindədir. *“Bu tərz gözlənilən fərdi və ya ictimai həqiqətlərin bəlli bir dünyagörüşü müstəvisində tənqidə məruz qalaraq anladılmasını əsas məqsədə çevirir. ...sosial, iqtisadi, mədəni, siyasi şərtlər içində təsvir etdikləri insanları, hadisələri, vəziyyətləri bəlli bir tənqid süzgəcindən keçirərək diqqətə çatdırırlar*”[41]. Məhz ictimai münasibətlər daxilində təqdimat ideya-estetik cəhətdən əsərdə *“zəmanənin təqazasına qulaq asmaq istəyi*”ni[42] bədii-estetik keyfiyyətə çevirməyə nail olur. Məhz belə tarixi bir dönəmdə - inqilabi epoxa dövründə ortaya çıxan tənqidi realizmin başlıca ədəb-nəzəri məsələlərindən biri oyaq, tənqidi və təhlili düşüncəyə sahib, konret tarixi çağırışlara cavab verməyə müvəffəq, dostu və düşmənini tanıyan, ümumvətən və ümumxalq maraqlarına sahib, müasir dünyanın elmi-texniki və bazar münasibətlə-

---

[40] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.4. – 2004.– s.249.

[41] Bağıtlı edebiyat [Elektron resurs] / https://www.frmtr.com/turk-dili-ve-edebiyati/6660196-bagitli-edebiyat.html.

[42] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.4. – 2004. – s.169.

rinə həssas, hazırlıqlı, adekvat cavab verməyi bacaran ağıllı və savadlı vətəndaşlar hazırlamaq idi. Buna görə də yeni dünyanın astanasında Azərbaycan ictimai mühitində mövcud olan bütün təbəqələrə və peşələrə xas insanları ictimai münasibətlər daxilində mövcud əxlaqı, davranışı, düşüncələri, vərdişləri, inanc və əməlləri, niyyət və qabiliyyətləri və s. ilə təqdim etmək ümdə bədii ehtiyaca çevrilmişdi. Buna görə, C.Məmmədquluzadənin də yazdığı kimi, Usta Zeynallardan başlayaraq bütün təbəqələrin adamlarını bədii yaradıcılığın obyektivinə gətirmək yeni dövrün çağırışlarını dilə gətirmək ədəbi missiyası oldu. Bu çağırışlara səs verən Sabir çalxalanan zəmanənin ruporundan ictimaiyyətə baxaraq əkinçiləri, fəhlə babaları, qazı, molla, zahid, bəy, ağa və b. zəmanə adamlarını yeni şeirin bədii müstəvisinə daxil etdi, onların konkret əhvalı, niyyəti, düşüncəsi, amalı, marağı ilə təqdim etməklə yeni dövrün çağırışlarının da panoramasını ortaya qoydu. Buna görə də tənqidi realist yazıçılar bir tərəfdən bədii varlığın dolğun xarici təsvirini verir, digər tərəfdən insanın psixoloji-mənəvi aləmini təqdim edir, ictimai şəraiti vacib tərəflərilə göstərməyə çalışırdılar. İctimai vəziyyətdəki dəyişmələr və tələblər tənqidi realist düşüncəni aktuallaşdırıb zərurətə çevirməklə tənqidi realizmi ədəbi fikir cərəyanına çevirir və yeni keyfiyyət dəyişiminə [sosialist realizminə] qədər davam edir.

Fəslin **"Azərbaycan tənqidi realizminin ədəbi-estetik səciyyəsi"** adlanan dördüncü bəndində tənqidi realizm ədəbi cərəyanının ədəbi-estetik məsələləri təhlil müstəvisinə gətirilmişdir. Bəllidir ki, Azərbaycan tənqidi realizmi bədii varlığa və ya həqiqətə tənqidi nöqteyi-nəzərdən yanaşmaqla bərabər, həm də inqilabi xarakteri ilə də səciyyələnirdi. İnqilabi epoxa dövrünün xarakterinə uyğun olaraq tənqidi realizm inqilabi keyfiyyəti ilə məsələlərə yanaşır, yeni cəmiyyət quruculuğunu bunsuz təsəvvür edə bilmirdi. Hətta inqilabi xarakter Azərbaycan romantizminə də sirayət etmiş, xüsusilə M.Hadinin romantizminin başlıca ədəbi-estetik səciyyəsinə çevrilmişdi. Çünki C.Məmmədquluzadənin özünün də dediyi kimi, *"Dünyanın çalxalanmağa hazır olan belə bir əsrində... milli intibah dövründə"*[43] azadlıq axtarmağın zərurətə çevrildiyi, millətlərin qımıldaşaraq növnöv azadlıqlar tələb etdiyi, bir zaman, əsr və dövrdə yazmaq ehtiyacı

---

[43] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə, tərt. ed. İ.Həbibbəyli. – Bakı: Öndər, – c.1. – 2004.– s.63.

müəyyənləşəndə məhz islam tayfalarının uzun əsrlər müddətində qaldığı fəlakət və cəhalətdən, eləcə də hər cür gerilik və nöqsanlardan qurtarıb oyandırmaq, maarifləndirmək, milli nikişaf, mücadilə və yeni həyata hazırlamaq, milli varoluşunu təmin etmək və gücləndirməyə dəvət etmək tənqidi realizmi yaradan sosial-mənəvi ehtiyac və zərurət idi.

C.Məmmədquluzadənin: *"İslam tayfalarının uzun əsrlər müddətində fəlakət və cəhalətdən qurtarmamaqlarına tək bircə islam dinini bais hesab edən bir dinsiz üçün* [müəllif kinayəyə yer verir. Halbuki artıq bu da sübut olunub və ədibin öz fikirləri sübut edir ki, heç də ədib din əleyhinə mübarizə aparmırdı. Bu, pozitivist fəlsəfə ilə naturalizmi birləşdirərək ortaya çıxan Azərbaycan tənqidi realizminin milli-regional mahiyyətindn irəli gəlirdi - R.Q.] *o vaxt "Həyat"ın moizələri, əlbəttə, genə xoş gələ bilməzdi*"[44] fikirləri onu deməyə əsas verirdi ki, romatizmin özünün ədəbi-estetik xüsusiyyətlərinə dayanaraq mövcud ictimai vəziyyətə uyumluluq göstərərək bədii fəliyyət göstərmələri tənqidi realizmin üsyankarlığı və inqilabiliyi fonunda yetərsiz idi [Amma bununla belə, dövrün başlıca milli ideya mənbəyi və yönəticisi romantizm idi, hərəkətverici və təlqinedici mənbəyi isə tənqidi realizm – R.Q.] köhnə dəyərləri yeni ictimai şəraitdə dəyərləndirmə, köhnə anlayışları yeni ictimai şüur və dərk müstəvisində anlama, köhəlmiş adət və vərdişləri, yaşayış tərzini ortadan qaldırıb yenisini yaratma Azərbaycan tənqidi realizmini yaradan və səciyyələndirən başlıca xüsusiyyətlərdirlər. Bu mənada tənqidi realizmin səciyyəsi *"unudulmuşları yad etmək"*[45], köhnə adət-ənənələri ortadan qaldırmaq, köhnənin üstündən qələm çəkib yenisini yaratmaqdan ibarət olmuşdur. Dünyalar titrəyən, aləmlər mayallaq aşan, fələklər bir-birinə qarışan[46] bir zamanda, millətlər yuxudan oyanıb gözlərini açdıqları, pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoyduqları bir ictimai-tarixi şəraitdə *"bəs sən hardasan, ay biçarə vətən?!"*[47] məqsədi, məsləyi, amalı ilə düşünmək, təbliğ və əməl etmək Azərbaycan tənqidi realizminin mahiyyətini müəyyən-

---

[44] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə, tərt. ed. İ.Həbibbəyli. – Bakı: Öndər, – c.1. – 2004.– s.69.
[45] Yenə orada, s.4.
[46] Yenə orada, s.4.
[47] Yenə orada, s.4.

ləşdirirdi. “*Dünya və aləmin dəyişildiyi, mənaların özgə təbir əxz elədiyi”*[48] bir zaman və ictimai-tarixi şəraitdə *“o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapması”*[49] Azərbaycan tənqidi realizmini yaradan, meydana gətirən ictimai-tarixi səbəb, ictimai-mənəvi zərurət və ədəbi-bədii missiya və ehtiyac idi. Bu mənada *“bütövlükdə cəmiyyətin tənqidi dərki və obyektiv bədii inikası, habelə milli istiqlal uğrunda mübarizə vəzifəsini”*[50] tənqidi realizm cərəyanı müəyyənləşdirməli və həyata keçirməli oldu.

Fəslin üçüncü paraqrafı **“Azərbaycan ədəbiyyatında tənqidi realizmin formalaşması və inkişafında “Molla Nəsrəddin” ədəbi məktəbinin rolu”** adlanır. Bu paraqrafda “Molla Nəsrəddin” jurnalının tənqidi realizmin ədəbi cərəyan kimi formalaşması və inkişafındakı rolundan bəhs edilmişdir.

Məlumdur ki, ədəbi cərəyanların formalaşmasında müəyyən mətbuat orqanlarının müstəsana rolu olmuşdur. Məlum olduğu kimi, müəyyən tarixi prosesdə müəllifin janr və milli mənsubiyyətinə görə heç bir fərq qoyulmadan ədəbiyyata formal və kontekst baxımından təsir edən müəyyən üslub, duyğu və düşüncə ardıcıllığı ədəbi cərəyan və ya ədəbi hərəkat adlanır. *“...Dünyagörüşü və sənət anlayışı baxımından həmrəy olan insanların irəli sürdükləri və davam etdirdikləri prinsiplərin məcmusundan doğan ardıcıllıq, ictimai quruluşun və onun bir tələbi kimi. dəyişməyə ədəbi hərəkat deyilir”*[51]. Azərbaycan romantizmi daha çox “Füyuzat”, tənqidi realizm isə “Molla Nəsrəddin” jurnalı ətrafında yazıb-yaradan sənətkarları əhatə etmişdir. Doğrudur, “Molla Nəsrəddin” jurnalının çapına qədər tənqidi realizm ədəbi cərəyanının bədii ədəbiyyatda təşəkkülü və inkişafı prosesi başlamışdı. Amma jurnalın çapı və müxtəlif ədəbi qüvvələrin bu jurnal ətrafında toplanması tənqidi realizmin bir ədəbi cərəyan, üslub kimi müəyyənləşməsi, inkişafı və yayılmasına təkan vermişdi. Çünki hər bir mətbuat orqanının yaradıcılıq amalı, dili və üslubu olması da

---

[48] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə, tərt. ed. İ.Həbibbəyli. – Bakı: Öndər, – c.1. – 2004. – s.4.
[49] Yenə orada, s.4.
[50] Həbibbəyli, İ.Ə. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Ə.Həbibbəyli. – Bakı: Elm, – 2019. – s.243.
[51] Türk edebiyatında akımlar [Elektron resurs] / URL: https://www.turkedebiyati.org/turk-edebiyatinda-akimlar.html.

məhz ədəbi cərəyanın ehtivasından irəli gələn məsələ olaraq diqqəti cəlb edir. Buna görə də haqlı olaraq akademik İ.Həbibbəyli "Molla Nəsrəddin" jurnalını *"tənqidi realizmin cəbbəxanası"*[52] adlandırmışdır. 1906-cı il aprelin 7-dən (yeni stillə 20-dən) nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı "Tiflis, 7 aprel" başlıqlı məqaləsində və müxtəlif nömrələrində çap olunmuş digər məqalələrində jurnalın amalı, ədəbi-ictimai missiyası, üslubu və b. məsələləri haqqında məlumatlar səsləndirmişdir. C.Məmmədquluzadə və Ö.F.Nemanzadənin ədəbi xətti və fəaliyyəti ilə mətbuat aləminə qədəm qoyan bu satirik-yumoristik jurnalın tənqidi mahiyyət kəsb edən üslubi xəttinə sonralar M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, M.S.Ordubadi, B.Abbaszadə, Ə.Şamçızadə, S.Mümtaz, Y.V.Çəmənzəminli, M.Möcüz və başqaları qoşularaq bu üslubun ədəbi cərəyan kimi inkişafını şərtləndirmiş və qüvvətləndirmişlər. Hətta jurnalda birbaşa iştirakı dəqiq olmasa da, Ü.Hacıbəyli də bu üslubdan təsirlənərək özünün əsərlərini məhz tənqidi realist üslubda ortaya qoyaraq ədəbi hərəkatın qüvvətlənməsinə öz yaradıcılığı ilə zənginlik qatmışdır. "Molla Nəsrəddin" jurnalı öz üslubu ilə geniş rəğbət və ehtiram qazandığı üçündür ki, onun təsirilə bu ədəbi yolu davam və inkişaf etdirən "Şeypur", "Baraban" kimi mətbuat orqanları bu ədəbi-publisistik cərəyanın qüvvətlənməsi və genişlənməsinə öz töhfələrini vermişlər. Hətta "Baraban" jurnalı "Molla Nəsrəddin" üslubunun rus dilindəki davamı idi. Cümhuriyyət dövründə nəşr olunan "Azərbaycan" qəzetinə də təsir edən "Molla Nəsrəddin" üslubu bu dövlət qəzetinin də tənqidi realizmə meyillənməsinə təsir göstərmişdi[53]. Sovet dövründə belə nəşr edilən "Kirpi" jurnalı və "Mozalan" satirik kinojurnalı da "Molla Nəsrəddin"in ədəbi missiyası və üslubi davamı olaraq meydana çıxmışdı. Bütün bunlar isə "Molla Nəsrəddin" jurnalının əhatəsində tənqidi realist üslub və ya ədəbi cərəyanın mərkəzləşməsi və inkişafı ilə nəticələnmiş, təbii olaraq, öz adına uyğun təlim, ədəbi-estetik xüsusiyyətlər, dil, üslub və b. keyfiyyətlər formalaşdırmış, hətta bəzən haqlı olaraq "tənqidi realizm" terminini üstələyərək "Molla Nəsrəddin" üslubu, təlimi, hərəkatı və s. kimi terminlərlə birləşik işlənmə

---

[52] Həbibbəyli, İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik / İ.Ə.Həbibbəyli. – Bakı: Nurlan, – 2007. – s.238.

[53] Daha ətraflı bax: Qasımov, R.A. Naxçıvan ziyalıları Azərbaycan mətbuatında (XX əsrin əvvəlləri) / R.A.Qasımov. – Naxçıvan: Əcəmi, – 2017. – 120 s.

fəallığı qazanmışdır. *"Fikrimizcə, ""Molla Nəsrəddin" ədəbi hərəkatı", ""Molla Nəsrəddin" şeir məktəbi" kimi terminoloji ifadələri ədəbi hadisənin milli məzmununu tam mənasında doğru ifadə edir. "Tənqidi realizm" terminoloji ifadəsi ədəbi hadisənin beynəlmiləl təzahürünü əks etdirirsə, "Molla Nəsrəddin" ədəbi hərəkatı" ifadəsi onun milli terminoloji ekvivalenti kimi çıxış edir*"[54].

Dissertasiyanın **ikinci fəsli "Azərbaycan tənqidi realizminin ideya əsasları və hədəfləri"** adlanır. Fəslin **"Tənqidi realizm və ictimai dərk problemi"** adlanan birinci paraqrafında varlığa ictimai baxış və konsepsiya məsələsi tədqiq edilmişdir. Tənqidi realizmin ictimai dərk problemi özünəməxsus və millidir. Tənqidi realizmin ictimai dərk anlayışı romantizmdən fərqli olduğu onun üslubunda və sənət kredosunda da tam aydın özünü nümayiş etdirmişdir. Tənqidi realizmin "cəbbəxanası" olan "Molla Nəsrəddin" jurnalının hələ ilk nömrəsindən "*sizi deyib gəlmişəm*"[55] müraciəti onun xalqa bağlılığını nümayiş etdirdiyi kimi, ictimai dərkində xalqın meyara çevrilməsinin, ümumxalq taleyi və mənafeyinin üstün tutulması təzahürünün göstəricisi idi. Tənqidi realizmin sənət düşüncəsində də "sənət xalq üçündür" mühakiməsi hakim və qanun idi. Buna görə də tənqidi realizmi digər realistlərdən və cərəyan nümayəndələrindən fərqləndirən başlıca keyfiyyət xalqın taleyinə insanın taleyindən ictimai-bədii yanaşma tərzi idi. Tənqidi realizmin ictimai varlığa münasibət və dərk məsələsində məhz xalqın maraqları və mənafeyinin üstün tutması özünəməxsusluğu onların bədii üslubu, yaradıcılıq tərzi və qəhrəman problemində də özünü aydın təcəssüm etdirmişdir. Təsadüfi deyildi ki, tənqidi realistlər xalqın anlaya biləcəyi dildən və məzacına uyğun tərzdən yazıb-yaratması onların üslubunu – yaradıcılıq tərzini müəyyənləşdirmişdi. Sadə, açıq türk dilində yazmaqdan tutmuş nağılvarı təhkiyə və lətifəvari gülüş və tənqid meyarı seçmək tənqidi realizmi səciyyələndirmişdi.

Fəslin birinci paraqrafının birinci bəndi **"Azərbaycan tənqidi realizminin ideya-fikir platforması: Milli istiqlal ideyası və cüm-**

---

[54] Qasımov, R.A. Azərbaycan ədəbiyyatında tənqidi realizmin formalaşması və inkişafında "Molla Nəsrəddin" ədəbi məktəbinin rolu // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, humanitar elmlər seriyası, – 2018. №4, – s.96.
[55] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.2. – 2004. – s.4.

**huriyyət düşüncəsi”** adlanır. Burada yeni ictimai-siyasi vəziyyətdə tənqidi realizmin ideya-fikir platformasında mühüm yer tutan müstəqillik və cümhuriyyət ideyasından bəhs edilir. Artıq qeyd edilmişdir ki, XX əsrin əvvəlləri ictimai-tarixi şərait və siyasi vəziyyət yeni dünya nizamının yarandığı, inqilabi epoxanın hakim olduğu bir dövr idi. XX əsrin əvvəlləri bütün bəşər-dünya tarixi üçün mürəkkəb, ziddiyyətli və eləcə də inkişaf, istiqlaliyyət baxımından əhəmiyyətli olduğu kimi Azərbaycan xalqı üçün də olduqca əhəmiyyətli bir dövr olmuşdur. Bu dönəm *“milli oyanış və intibah”*[56] dövrü kimi səciyyələnir. Bu dövrdə istər romantiklər, istərsə də tənqidi realistlər müstəqillik ideyaları ilə yaşayır və milli tale məsələsində hüquqi-siyasi amal da ortaya qoyurdular. Bu cəhətdən romantiklər türkçülük ideyası və Turançılıq amalı ətrafında fikir və əməl birliyi göstərir, tənqidi realizmin isə məfkurə əsasını azərbaycançılıq və Azərbaycan xalqının müstəqil hüquqi-siyasi mövcudiyyəti təşkil edirdi[57]. Azərbaycançılıq məfkurəsinin bədii və publisist ədəbiyyatda aparıcı nümayəndələrindən olan C.Məmmədquluzadə “Azərbaycan”, “Cümhuriyyət”, “Vətəndaşlara” kimi publisist əsərlərində, o cümlədən “Anamın kitabı”, “Kamança” pyeslərində azərbaycançılıq məfkurəsindən çıxış edərək bilavasitə dövlət müstəqilliyi ideyasını ortaya qoymuşdur. C.Məmmədquluzadə əsərlərində Azərbaycan xalqının köləlik, işğal və istismar həyatını, zalımların zülmü altında yaşayışını təqdim edərkən də xalqın haqq və hüquq məsələlərini başlıca ideyaya çevirmiş, müstəqillik duyğularını dilə gətirmişdir. Ö.F.Nemanzadənin “Dərdimiz və dərmanımız”, “Dilimiz və imlamız”, “Nə üçün haqqımızı istəmiriz?”, “Günah kimdə?”, “Biz də vaxta görə çalışaq”, “Nə vaxta qədər?”, “Alınan azadlığı nə cür saxlamalı”, “Millətpərəstlik zamanıdır”, “Rüstəm və Söhrab”, “Eşq və məhəbbət”, “Fürsət az, ehtiyac böyük”, “Milli məsələlərimizin vaxtımı?”, “Gürcü politikaçıları”, “Mən kiməm”, “Milliləşmək” Y.V.Çəmənzəminlinin “Tarixi, coğrafi və iqtisadi Azərbaycan”, “Azərbaycan muxtariyyəti. Ayılın, toplaşın”, “Biz kimik və istədiyimiz nədir?”, “Litva tatarlarının tarixi” və

---

[56] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 clddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.4. – 2004.– s.63.

[57] Ətraflı bax: Qasımov, R.A. Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası / R.A.Qasımov, Z.H.İsmayıl. – Bakı: Elm və Təhsil, – 2017. – 192 s.

b. kimi məqalə və əsərlərində bütün tərəflərilə Azərbaycan istiqlaliyyəti və dövlətçilik quruluşu məsələsi xalqa izah olunur, milli sitiqlal, tərəqqi və müstəqillik düşüncəsi öz əksini tapırdı. *"Kim ki, insanı sevər, – aşiqi-hürriyyət olur, Bəli, hürriyyət olan yerdə də insanlıq olur!"*[58] M.Ə.Sabir "İstiqbal bizimdir", "Neçin verməyir", "Nədir, aya, yenə üsyanları iranlıların", "Fisincan", "Şimdi fürsət var ikən bir iş gör istiqbal üçün!", "Səttarxana" və başqa şeirlərində məhz istiqlaliyyət məsələsini qabartmışdır. Tənqidi realistlər milli dövlət quruluşunu milli, mənəvi və dini dəyərlərin qorunub saxlanması və milli talenin qarantı hesab edirdilər. Böyük azərbaycançı ədib Cəlil Məmmədquluzadə *"dünya-aləmin dəyişildiyi, bütün zadların dəyişilib öz mənasını tapdığı"*[59] bir vaxtlarda *"vətən, vətən, vətən, millət, millət, millət, dil, dil, dil. Bəni–noi-bəşər üçün bu dairələrdən kənar özgə bir nicat yoxdur"*[60], - deyə səslənir və milli problemləri qaldırırdı.

Fəslin **"Azərbaycan tənqidi realizmində qəhrəman problemi"** adlanan ikinci paraqrafında tənqidi realizmin ictimai dərk və bədii yaradıcılıq hadisəsində şəxsiyyət və ədəbi qəhrəman problemi yer almışdır. İnkişaf, tərəqqi və milli talelərin müəyyənləşdiyi bir zamanda tənqidi realizmin bədii obyektivində şəxsiyyət və ədəbi qəhrəman daha çox diqqət cəlb edirdi. Çünki zamanın və milli talenin hərəkətverici qüvvəsi məhz insanın özü idi. *"Tənqidi realizm üçün qəhrəman həyatın özündən, ictimai münasibətlərin içindən seçilir və onun həyatı, taleyi, davranışı və s. timsalında ədəbi problemləri ortaya qoyur"*[61]. Əlbəttə, hər bir xalqın ədəbiyyatı üçün tənqidi realizm nə qədər millidirsə, onun ədəbiyyata gətirdiyi problemlər və yaratdığı qəhrəmanlar da bir o qədər milli və özünəməxsusdur. Bu baxımdan dünyəvilik qədər millilik kəsb edən Azərbaycan tənqidi realistləri də məhz Azərbaycan xalqının tarixi taleyi üçün əhəmiyyətli bir dövrün problemləri və insanı ilə sənətə gəlmişdilər. Konkret dövrün problemlərini ədəbiyyata gətirən tənqidi realizm həm də o dövrün insan-

---

[58] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir. – Bakı: Şərq–Qərb, – c.1. – 2004.– s.149.

[59] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.3. – 2004.– s.4.

[60] Yenə orada, s.4.

[61] Qasımov, R.A. Azərbaycan tənqidi realizmində "kiçik" adam obrazları // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, – 2023. c.19. №1, – s.128.

larını qəhrəman seçməklə "nə etmək?" və "necə etmək?" kimi mühüm suallar ətrafında özünəməxsus məsələləri qaldırırdılar. Tənqidi realistlər Azərbaycan xalqı üçün ciddi ictimai-tarixi bir dönəm olan mərhələdə bütün tarixi prosesi, ictimai vəziyyəti yaxşısı və pisi, doğrusu və yanlışı, olanı və olmayanı və s. ilə birlikdə təsvir edir, adamların ictimai həyatında yer alan nigarançılıq, sosial məsuliyyətsizlik, ağaya sədaqətdə düşkünlük, inanc və düşüncə elementlərindən asılılıq və s. kimi mənəvi-psixoloji keyfiyyətlərin ictimai bağlamında dövrün qəhrəmanlaşan adamlarının hal və vəziyyətini təqdim edirdi. Xüsusilə Azərbaycan tənqidi realistlərinin bədii cəhətdən əks etdirmək istədikləri dövr o qədər əhəmiyyətli və ciddi bir dönəm idi ki, məhz bu dövr köhnədən qopma, yeniyə keçid dövrünü özündə ehtiva edir, bu kimi ciddi və məsuliyyətli bir ictimai prosesin səciyyəsi, məzmunu, problemləri, istiqaməti və olanla olmayanı bir arada təsvir və təqdim etməyə sövq edirdi. Qeyd edək ki, ədəbi cərəyan olaraq ictimai-tarixi şəraitin məntiqi inkişafı və daxili ehtiyacından yaranan tənqidi realizmin poetikasında ictimailik mühüm xüsusiyyət kəsb etmişdir. Buna görədir ki, tənqidi realistlərin bədii yaradıcılığında hadisə və əhvalatların cərəyan etdiyi konkret ictimai bir mühit, ictimai bir məkan vardır. Burada realizm dünyəvi təbiət üzərinə köklənir. İnsanın mənliyinə aid vacib xüsusiyyətlər ön plana çıxarılır. Tənqidi realist əsərlərdə insan cəmiyyət və mühit içərisində təqdim olunur[62]. Tənqid və ifşa obyekti, sarkistik məkan olan coğrafiya olaraq isə tənqidi realistlərin daha çox ədəbi kəşfi və bədii-obrazlı termini ilə "Danabaş", "İtqapan", "Qapazlı", "Zurnalı" [C.Məmmədquluzadə], "Dəccalabad" [Ə.Haqverdiyev], "Veyilabad" [Y.V.Çəmənzəminli], "Şeytanabad" [M.S.Ordubadi] deyə adlandırılırdı. Qeyd etmək yerinə düşər ki, tənqidi realizm üçün tipik şərait Danabaş coğrafiyası [və hər müəllif üçün fərdi nominasiya], tipik qəhrəman isə bu coğrafiyanın sakinləri idilər. Tənqidi realizm romantiklərdən fərqli olaraq qəhrəman konsepsiyasında idealizə etməyi deyil, konkret, tipik ictimai-tarixi şərait və mühit daxilində mövcud vəziyyətdə olan tipik insanları təqdim edir, necə olmalı olan qəhrəman haqda təəssüratlar formalaşdırırdı. *"Tənqidi realist əsərlərdə nəinki insan obrazları, mükəmməl xarakterlər yaradılır, həmçinin tarixi, lokal şəraiti daha konkret və*

[62] Batı edebiyatında akımlar / H.B.Akyıldızın editörlüğü ile. – Eskişehir: Anadolu Universitesi yayını, – 2018. – s.187.

*canlı təsvir üçün həyat və məişət şəraiti, konkret əşyalar təsvir edilir, ictimai mühitin konkret vəziyyətini təsvir etməyə imkan verən tənqidi-simvolik və metaforik obrazlar yer alırdı"*[63]. Bu mənada ictimailiyi bədii xarakterinə çevirən tənqidi realistlər ictimai-tarixi hadisə və problemlər kontekstində bədii obraz, xarakter və ya tip yaratmağa üstünlük verirdilər. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinə qədərki dövrdə inqilabi epoxanın Azərbaycandakı vəziyyətinə diqqət yetirmək və tənqid etmək məqsədilə "Nigarançılıq", "Rus qızı", "Zırrama" kimi əsərlərindəki tipik obrazlar əks edilirdi. Bu obrazlar isə həmişə tənqidi realizm haqqında deyilən və səciyyəvi xüsusiyyəti kimi göstərilən "kiçik" adm obrazları aktuallığını aşaraq daha çox orta təbəqə nümayəndələrinə yönəlməklə onların arasından qəhrəman seçilməsinə diqqət yetirilirdi. Bu qəhrəmanılar isə ümumi keyfiyyət və xüsusiyyətlərinə görə daha çox C.Məmmədquluzadənin "Zırrama" tipilə ümumiləşir.

II fəsin **"Azərbaycan tənqidi realizmində klassik irs problemi və milli tənqidi düşüncə sistemi"** adlanan üçüncü paraqrafının **"Şifahi xalq ədəbiyyatı və tənqidi realist ədəbiyyat"** adlı birinci bəndində xalq ədəbiyyatı ənənələrinin tənqidi realizmə təsiri məsələsi tədqiq edilmişdir. Artıq deyildiyi kimi, Azərbaycan tənqidi realizminin ictimai dərk problemində vətən və xalqın taleyi aparıcı ideala çevrildiyinə görə xalqın maraqları və mənəvi dəyərləri də onun bədii düşüncə sisteminin nüvəsində yer almışdı. Xalqın taleyi mühüm ideal olduğu kimi, onun maarif və ictimai fəallığa dəvət məsələsi də xalqın tərbiyə metodlarına əsaslanmaqla xüsusi bədii metoda çevrilmişdi. Bu üzdən xalqın məzacına uyğun şəkildə yazmaq məhz Azərbaycan tənqidi realizminin başlıca yaradıcılıq metoduna çevrilmişdi. Açıq ana dilində yazmaqdan tutmuş onun məzacının açarını təşkil edən xalq lətifələri və əks etdirmə üslubu tənqidi realizmin metodoloji əsasında dayanırdı. Mir Cəlalın da yazdığı kimi, *"...təbii, mənalı xalq yumoru böyük və faydalı bir vasitə idi. Maraqlı üsullarla, zarafat yolu ilə yoldaşın səhv və nöqsanını yoldaşa göstərmək xalq ruhuna da çox uyğun idi. Burada yazıçılar canlı həyata, şifahi ədəbiyyatın zəngin xəzinəsinə daha çox müraciət edirdilər"*[64]. Bu məqsədlə Azər-

---

[63] Qasımov, R. Metaforik hikmətin ustadı // Ədəbiyyat. – 2022, 9 aprel, – s. 14.

[64] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905–1917) / M.Cəlal. – Bakı: Ziya&Nurlan, – 2004. – s.53-54.

baycan tənqidi realizminin banisi və nəhəng bayraqdarı Cəlil Məmmədquluzadənin bütün türk xalqları milli mənəvi düşüncəsini xəritələşdirən məşhur Molla Nəsrəddin lətifəçiliyi və bu xalq ədəbiyyatının nəhəng obrazına olan marağında da özünü göstərmişdi. Oxşar ideya-məfkurə yolçuları və ədəbi missiya daşıyıcalarını birləşdirməklə ədəbi cərəyana - Azərbaycan tənqidi realist ədəbi cərəyanına çevirən bir əbədiyaşar mətbuat orqanının adından tutmuş yazı üslubu, deyim tərzi, surətləri, tənqid hədəfləri və onun nəhəng qəhrəmanı Molla Nəsrəddinin özünün yaranmasına qədər bu xalq düşüncə və yaradıcılıq tərzi mühüm rol oynamışdı.

Beləliklə, sadə yazmaqla bərabər xalq gülüş metodu və tənqid-ifşa üsullarından istifadə də Azərbaycan tənqidi realizminin metodoloji əsasında dayanırdı. Mollanəsrəddinsayağı yaradıcılıq təzi Azərbaycan tənqidi realizminin birinci folklor mənbəyini təşkil edirdi. Buna görə də xalq ruhuna, onun yaratdığı ədəbiyyata mühüm əhəmiyyət verən tənqidi realizmdə Molla Nəsrəddin lətifələri ilə bağlılıq daha açıq və aydın diqqəti cəlb edirdi. Fikrimizcə, tənqidi realist mətbuatın ana janrı olan felyeton da məhz xalq lətifələrinin XX əsr ruhuna uyğunlaşdırılmış və modernləşdirilmiş forması idi. *“Bizə elə gəlir ki, məhz XX əsrin əvvəllərində tənqidi realizmlə daha çox aktuallaşan, ədəbi silah olaraq ədəbi yaradıcılığa daxil olan bədii gülüş, satira və yumorun özü də əslində elə bu xalq ədəbiyyatı ənənələrinə dayanmaqdan irəli gəlirdi. Mollanəsrəddinsayağı tənqidi gülüş doğuran felyeton, tərs məntiqə xidmət edən atalar sözləri və hikmətli nəsihətlər, tapmaca, nağılları və dastanları xatırladan səyahətnamələr və s. şifahi xalq ədəbiyyatından yararlanmanın məntiqi nəticəsi idi*”[65]. Hətta tənqidin, gülüşün bədii məntiqinə diqqət edilərsə, “Molla Nəsrəddin” jurnalı və ədəbi yaradıcılığı ilə “Molla Nəsrəddin lətifəçiliyi” arasında tam, qırılmaz bir bağlılıq özünü göstərməkdədir. Fikrimizcə, Molla Nəsrəddin lətifələri milli tənqidi realist düşüncə sistemi və rasional baxış-düşüncə-münasibət formasının nüvəsini, əsasını təşkil etdiyi kimi, XX əsrdə meydana gələn “Molla Nəsrəddin” jurnalı və tənqidi realist cərəyan məhz həmin düşüncə sisteminin məntiqi nəticəsi, davamı və onun varisi, xələfi idi.

---

[65] Qasımov, R.A. Azərbaycan milli tənqidi realizmi və xalq lətifə ənənələri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, – 2019. №3, – s.154.

II fəslin üçüncü paraqrafının **“Azərbaycan tənqidi realizmi və klassik ədəbi ənənələr**” adlanan ikinci bəndində tənqidi realizm ədəbi cərəyanının yaradıcılıq-üslub mənbəyində dayanan klassik ədəbi ənənələrdən bəhs edilmişdir. Tənqidi realizm bir ideya-məfkurə yolu və ədəbi cərəyan olaraq özündən əvvəlki ədəbi mərhələlərin mütərəqqi ənənələrini davam etdirmişdir. Ədəbiyyatdakı tənqidi düşüncə və realist təsvir ədəbi ənənələrlə daşınaraq tənqidi realizmin ideya-yaradıcılıq əsasına çevrilmişdi. Bütövlükdə ədəbiyyatımızda, habelə Xaqaninin “Töhfətül-İraqeyn, “Mədain xərabələri”, Məhsətinin rübailəri, Nizaminin poemaları, eləcə də “Sultan Səncər və qarı”, “Sofinin hekayəti” və b. kimi əsərlərində, F.Nəiminin, İ.Nəsiminin, M.Füzulinin və b. əsərlərində özünü göstərən və bir ənənə olaraq yaşayan milli tənqidi düşüncə sistemi XX yüzilin əvvəllərindəki tənqidi realizmin ideya-yaradıcılıq bünövrəsinin möhkəm təməllərindən olmuşdur. Habelə klassik ədəbiyyatda Q.Təbrizi, M.Gəncəvi, X.Şirvani, N.Gəncəvi dövründə ideyalaşan, F.Nəiminin, İ.Nəsiminin, B.Quşçuoğlunun və başqalarının əsərlərində ədəbi mübarizə idealına çevrilən humanizmi də tənqidi realizm öz yaradıclıq-məfkurə sistemində möhkəm ənənlərlə qorumuş və təzahür etdirmişdir. Romantik bədii yaradıcılıq metodunun bətnində inkişaf edərək daşınan realizm zənginləşərək metoda və XX əsrin əvvəllərindəki ədəbi cərəyanın formalaşma səbəbində dayana bilmişdi. Klassik ədiblərin yaradıcılıq və mübarizə ideyaları tənqidi realizmin yaradıcılıq məndəricəsində özünə yer tuturdu. Klassik yaradıcılıq örnəklərindən istifadədən tutmuş onlara parodiyaya qədər tənqidi realist üslubun ardıcılları faydalanır və qaynaq olaraq müraciət edirdilər. Xüsusilə orta əsrlər ədəbiyyatının dövrlə mübarizə ənənəsi tənqidi realizm üçün bir nümunə təşkil edir, despotizm, ictimai gerilik, cəhalət və siyasi ağalığa qarşı mübarizədə faydalanırdılar. C.Məmmədquluzadənin məqalələrində Füzuliyə bəslənilən münasibət və onun yaradıcılığından qaynaqlanan ədəbi istifadə həm də bütövlükdə klassik irsə yaradıcı yanaşma və faydalanmanın təzahürünü təşkil edirdi. *“Klassik ədəbi janrlar tənqidi realizmin dövrlə mübarizəsində ədəbi üslubun tələblərinə uyğunlaşaraq satirik ideya və məzmun kəsb edir, klassik ədəbiyyatdakı anlayışlar tənqid və ifşa səciyyəsi daşıyır, klassik sənətkarların aşiq və məşuq məhəbbət hadisəsi tənqid hədəflərinin xarakter və nöqsanlarının ifşa arqu-*

*menti kimi çıxış edirdi”*[66]. Xüsusilə Füzuli irsi həm köhnə ədəbi ənənə və janrların, ifadə və obrazların satirik məcraya keçməsinə stimul vermiş, həm də Füzulinin tənqidi düşüncəsi tənqidi realizmin metodoloji və üslubi mənbəyində dayanmışdı. Füzulinin “Rindü Zahid”, “Səhhət və Mərəz”, “Şikayətnamə” və b. əsərlərindəki tənqidi münasibət və müəyyənləşməkdə olan realizm üslubu XX əsrin əvvəllərindəki tənqidi realizmin təməlində dayanan amillərdən olmuşdur.

II fəslin **“Tənqidi realizmdə dinə münasibət məsələsi”** adlanan dördüncü paraqrafında tənqidi realistlərin dinə münasibət məsələsi təhlildən keçirlmişdir. XIX yüzildən başlayaraq maarifçi realizmin ideya-məfkurə məzmununda dayanan dini-şəri idarəçiliyi islahat və münasibət məsələsi tənqidi realistlər üçün yeni keyfiyyətdə aktuallıq qazanmışdır. Xüsusilə, M,F.Axundzadə və M.Şahtaxtılının dinə yanaşma məsələsi tənqidi realizm ədəbi cərəyanın ideya-məfkurəsində yenidən gündəmə gəlmişdir.

Tənqidi realizm bir ədəbi cərəyan olaraq mövcud ictimai-siyasi quruluşu mühakimə təzahürüdür. Bu, həmçinin mövcud şəraitdə zehniyyət dəyişimi ehtiyacından doğan bir düşüncə və yaradıcılıq tərzidir. Məlumdur ki, tənqidi realizm *“universal insan təbiətinə köklənir. İnsanın mənliyinə aid bəsit xüsusiyyətləri ön plana çıxarılır”*[67]. Ümumiyyətlə, tənqidi realizmin təşəkkülü və formalaşmasında Hegel, Kant və Freyd kimi filosofların nəzəriyyə və fikirlərinin də təsirindən doğan ədəbi-nəzəri əsaslar və estetik məsələlər formalaşmışdır. Tənqidi realizmin dinə yanaşmasındakı ənənə və ya əxlaq səviyyəsinə endirmə təklifi məhz Kantın nəzəriyyəsindən doğan bir fakt idi. Freydin psixoanalitik və şüuraltı nəzəriyyəsinin təsirinin nəticəsi hesab etmək olardı ki, tənqidi realizmdə ədəbi qəhrəman və obrazın davranış, qorxu və ya hisslərinin mənəvi səbəbi, şüuraltısı motivəedici akt olaraq araşdırılır və təqdim edilirdi. Bu baxımdan *“mövcud ictimai-siyasi vəziyyəti dəyişmək açarı kimi çıxış edən insanın zehniyyəti və mühafizəkar əxlaqının da dəyişdirilməsi başlıcalıq təşkil*

---

[66] Qasımov, R.A. Azərbaycan milli tənqidi realizmi və klassik irs əlaqələri // – Naxçıvan: NDU-nun Elmi əsərləri, – 2019. c.2. №1, – s.61.

[67] Batı edebiyatında akımlar / H.B.Akyıldızın editörlüğü ile. – Eskişehir: Anadolu Universitesi yayını, – 2018. – s.187.

*edir, tipiklik anlayışının məzmununa daxil olur*”[68]. Bu mənada XX əsrin əvvəlləri ictimai vəziyyətə qarşı islahatçı mövqedən çıxış edən Azərbaycan tənqidi realistləri üçün də tipik obrazlar, mükəmməl bədii xarakterlər, konkret sinif və ya təbəqələrini təmsil edən obrazlar yaratmaqla mövcud stereotipləri, zehniyyəti və əlbəttə, həmin dövr insanlarına xarakterik olan mühafizəkar əxlaqı dəyişdirmək ehtiyacı ön plana çıxır. Dini dünyagörüşün, xüsusilə fanatizm, xurafatçılıq və cəhalətin hakim olduğu bir dövrdə tipik bir cəmiyyətin səciyyəvi ibadətçiliyi və mühafizəkarlığına qarşı mübarizə aparmaq və müasir yaşam şərtlərinə uyğunlaşdırmaq tənqidi realistlərin ədəbi missiyası kimi çıxış etmişdir. Azərbaycan tənqidi realizmində ibadətçi və mühafizəkar insan tiplərinin xüsusilik qazanması mövcud ədəbi qəhrəmanların səciyyəvi xüsusiyyətlərinə daxil olan keyfiyyətlərdir. Buna görə də Azərbaycan tənqidi realistləri birinci növbədə qəhrəmanın mühafizəkar əxlaqı, dünyagörüşü və düşüncəsi, xüsusilə onun mövhumat və xurafat asılılığını tənqid hədəfinə çevirmişdir.

Azərbaycan tənqidi realizmi dini xurafata, cəhalətə və dini-mənəvi asılığa qarşı mübarizə aparsa da, heç bir zaman dinin ortadan qaldırılması ideyasını müdafiə etməmişdir. Tənqidi realist ədəbiyyatda ilkin, başlıca tənqid və ifşa hədəfində qəhrəmanın dini-mənəvi asılılığı, mühafizəkarlığı və fürsətgirliyi olmuşdur. Bu baxımdan diqqət edilsə, təhlillərə obyektiv yanaşılsa, tənqidi realist sənətkarların heç birinin yaradıcılığında Allahı və ya dini inkar məsələsi söhbət mövzusu yoxdur. Onlar üçün başlıca məsələ din pərdəsinə bürünərək insanların düşüncə və stereotiplərinə çevrilmiş saxta, uydurulmuş hökm və qaydaları inkar, tənqid və ortadan qaldırmaq meyli təşkil edir. İnsanları, cəmiyyəti Allah, din, peyğəmbər, şəriət adı altında aldadaraq[69] ən adi insani haqlarından, inkişaf və dirçəlişdən, müstəqillik və istiqlaliyyətdən geri qoymaq, əsarət, köləlik altında saxlamaq əməllərinə qarşı maarifpərvər və istiqlalçı ziyalılar qətiyyətlə mübarizə aparırdılar. C.Məmmədquluzadənin “Əhvalatlar” silsiləsi, “Usta Zeynal”, “Poçt qutusu”, “Ölülər”, “Dəli yığıncağı”, “Lənət” və b. bə-

---

[68] Qasımov, R.A. Cəlil Məmmədquluzadənin yaradıcılığında din məsələsi // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, – 2012. №1, – s.69.

[69] Öztürk, Y.N. Allah ile aldatmak / Y.N.Öztürk. – İstanbul: Yeni boyut, – 2008. – s.7.

dii əsərləri, “Xatiratım” əsəri və publisistik yaradıcılığında tənqidi realizmin ideya-məfkurə yolu olaraq *“mövhumatın başından vurmaq, dini xurafatı ortadan qaldırmaq”*[70], insaların din adı ilə aldadılması və müasir inkişafdan, haqq və hüquqdan geri qalmasına qarşı mübarizə aparmaq missiyası ifadə olunmuşdu. Ö.F.Nemanzadənin “Dərdimiz və dərmanımız”, “Biz də vaxta görə çalışaq”, “Nə vaxta qədər?”, “Ümidvaram”, “Cavab”, “Ağacı qurd içindən yeyər”, “Millətpərəstlik zamanıdır”, Ə.Haqverdiyevin “Bizim yabılığımız”, Y.V.Çəməzəminlinin “Azərbaycan muxtariyyəti ayılın, toplaşın!”, “Biz kimik və istədiyimiz nədir” və b. yaradıcılıq nümunələrində müşahidə edir, zaman və din məsələsinin qaldırıldığının şahidi oluruq. Ö.F.Nemanzadə də, Y.V.Çəmənzəminli də, Ə.Haqverdiyev də, M.Ə.Sabir də və başqaları da dini etiqad azadlığından bəhs etmiş, qatı dindarlığın yaratdığı mövhumat və mədəni gerilik əleyhinə çıxmış, dünyanın ciddi ictimai-siyasi dəyişən vaxtında mənəvi dəyər olaraq dini qorumağa səsləmişlər. Biz eyni fikirlərə Y.V.Çəmənzəminlinin “Biz kimik və istədiyimiz nədir” başlıqlı məqaləsində rast gəlirik. Nemanzadənin “Ağacı qurd içindən yeyər” başlıqlı məqaləsi ilə M.Ə.Sabirin “Qorxuram” satirik şeiri müsəlman aləmindəki gerilik, vəhşilik, köhnə düşüncə, adət-ənənə kimi köhnəlikləri tənqid etmək baxımından tamamilə eynidir. Sabir “Tərpənmə, amandır, bala, qəflətdən ayılma”, “Cəhd elə, sən ancaq nəzəri-xəlqdə pak ola”, “Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə”, “Zahida, gəl soyunaq bir kərə paltarımızı” kimi satirik şeirlərində dini xurafata qarşı mübarizə açdığı kimi, “Qeyrət” başlıqlı məqaləsində islamın əsl mahiyyətinin elmə və inkişafa dəvət olduğunu yazaraq saxtakarları ifşa edirdi. Sabirin *“Quş kimi göydə uçar yerdəkilər, Bizi gömmüş yerə minbərdəkilər!”*[71] misrası müsəlman aləmini geri salan qüvvə və səbəblərin ifadəsi baxımdan çox müvəffəqiyyətlidir. Ə.Nəzmi, Ə.Qəmgüsar, M.Möcüz kimi mollanəsrəddinçi şairlər də Sabirin şeriyyətini davam etdirərək poeziyada mövhumat və xurafata qarşı mübarizə aparırdılar. Qətiyyətlə demək olar ki, tənqidi realistlər maarifçi realizmin davamı olaraq insanları müqəddəs bilinən dini kitabların özündən çıxış etməyə dəvət edir, di-

---

[70] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.4. – 2004. – s.70-71.

[71] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir. – Bakı: Şərq–Qərb, – c.1. – 2004.– s.285.

nin oxumağı, öyrənməyi və inkişaf etməyi heç də qadağan etmədiyinə inandırmağa çalışırdılar. Dini inancın insanları kölələşdirmək aləti kimi istifadə edilməsinə qarşı mübarizə açılırdı. C.Məmmədquluzadə də qətiyyətlə yazırdı ki, "Molla Nəsrəddin"in məqsədi əsla dini ortadan götürmək deyil, köhnəlmiş adət-ənənələri ortadan qaldırmaqdır[72]. Tənqidi realistlərin: *"bu sözləri yazıram ki, siz oxuyub fikir edəsiniz"*[73] rəyi əslində Quranın ayələrində dəfələrlə təkrarlanan "ağlınızı işlədin" hökmünə tamamilə uyğun gələn fikir idi. C.Məmmədquluzadənin: *"Camaat, Allaha şükür, öz fikriniz, mühakiməniz var, görürsünüz, ...kimlərdir həqiqəti gizlədib, camaatı alçaldıb, ələ salırlar"*[74] fikri də Quranda məxsusi olaraq keçən: *""And olsun, şeytan içinizdən bir çox nəsli sapdırmışdı. Ağlınızı heç işlətmirmisiniz?"*[75] müraciəti və mühakiməsinin eyni idi.

Dissertasiyanın III fəsli **"Azərbaycan tənqidi realizminin janr problematikası"** adlanır. Fəslin "Azərbaycan tənqidi realizminin janr təsnifatı" adlanan birinci paraqrafında tənqidi realizmin janr məsələləri təhlil predmetinə çevrilmişdir. Tənqidi realizm öz ideya-məfkurə, üslub və yaradıcılıq tərzinə uyğun olaraq nəticəli fəaliyyət göstərmələrinə imkan verən ədəbi janrlardan yararlanmışlar. Tədqiqatlarda haqlı olaraq tənqidi realizmin janrlarına publisistika, bədii nəsr, dramaturgiya və lirik növ üzrə baxışlar olmuş, haqlı və sanballı qənaətlərə də gəlinmişdir. Bunu da qeyd etmək vacib olar ki, Azərbaycan milli tənqidi realizminin bir özünəməxsus təşəkkül və inkişaf xüsusiyyətidir ki, Azərbaycan ədəbiyyatında tənqidi realizm nəsrdə özünü daha çox təzahür etdirmişdir. Lirik və dramatik janrlar sonradan nəsrə dəstək verməklə onun inkişafı və zənginləşməsinə şərait yaratmışdır. Hətta ayrı-ayrı sənətkarlar tənqidi realizmin müəyyən janrında daha bacarıqlı və istedadlı olmuş, onun inkişafına şərait yaratmışdır. Qətiyyətlə demək olar ki, Azərbaycan ədəbiyyatında tənqidi relist bədii nəsrin təşəkkülündən başlamış inkişafına qədər bütün səciyyəni Cəlil Məmmədquluzadənin adı ilə əlaqəli çəkmək mümkündür.

---

[72] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.2. – 2004. – s.212.

[73] Yenə orada, s.111.

[74] Yenə orada, s.149.

[75] Kurani-Kerim meali / Y.N.Öztürkün çevrisi. – İstanbul: Yeni boyut, – 2023. – s.991.

Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, M.S.Ordubadi və b.nın nəsr əsərləri bu növün və ya janrın inkişafına daha da rəng qatmış, onun zənginləşməsinə imkan yaratmışdır. Tənqidi realizmin lirik növdə təzahürü Mirzə Cəlilin ilk nümunələrindən başlasa da, bu sahənin ustadı və mahir sənətkarı Mirzə Ələkbər Sabir idi. Sabirin bütün yaradıcılıq nüvəsini tənqidi realist şeir təşkil edir. Əli Nəzminin, Əliqulu Qəmküsarın, Məmməd Səid Ordubadinin, Mirzə Əli Möcüzün və başqalarının şeir yaradıcılığı bu sahədə zənginləşdirici və inkişafetdirici rol oynamış, daha da pərvazlanmasına imkan yaratmışdır. Tənqidi realist dramaturgiya sahəsində isə Cəlil Məmmədquluzadənin müəyyənləşdirici yaradıcılığına Ə.Haqverdiyev və Ü.Hacıbəylinin əsərləri zənginləşdirici dəstək durmuş və inkişaf etdirmişdir.

Qarışıq zamanda, savadsızlığın baş alıb getdiyi, ictimai ziddiyyətlərin yaşandığı, güzəran və ehtiyacın insanların həyatını ələ aldığı bir vaxtda irihəcmli janrlardan istifadə heç də maraq doğurmurdu. Daha sürətli, tez və çevik mütaliə mədəniyyətinə daxil ola bilən janrlar praktik olaraq nəticəli və əhəmiyyətli görünürdü. Janrların ən kiçiyi bu dövrdə daha çox aktuallıq qazanır və daha çox istifadə edilir. Daha tez oxunmaq, dərk edilmək və yadda qalmaq baxımından praktik cəhətdən faydalı olan kiçik hekayə, satirik-lirik şeirlər, publisistik felyetonlar böyük önəm qazanır. İlk nümunəsi böyük ustad Cəlil Məmmədquluzadədən başlayan və Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli kimi davamçılarla zənginləşən və möhkəmlənən tənqidi realist nəsrin ən kamil nümunələri olaraq hekayələr meydana gəlir. Cəlil Məmmədquluzadənin ustadı olduğu kiçik hekayə və Mirzə Ələkbər Sabirin ustadı olduğu kiçik satirik şeir janrları tənqidi realizmin ruporuna çevrilir.

III fəslin birinci paraqrafının **“Lirik janrlar”** adlanan birinci bəndində tənqidi realizmin lirik janrları tədqiq edilir.

Tənqidi realistlər köhnə ədəbi janrlardan yeni dövrün tələblərinə uyğun məharətlə istifadə edir, qəzələ, beşliyə, digər şeir şəkillərinə tamamilə müasir məzmun verirdilər. Tənqidi realist poeziyada klassiklərə nəzirə, parodiya və perifrazlarla bərabər, inqilabi dövr üçün əhəmiyyətli olan satirik məzmunlu marş və himn nümunələri də istifadə edilirdi. Tapmaca, bəhri-təvil, sual-cavab, dəyənək, taziyanə kimi janrlar satirik poeziyada çox istifadə edilən şeir şəkilləri və janrlarından olmuşdur. Bu sırada tipi xarakter olaraq təqdim və ifşa edən

fəxriyyə, habelə sosial qrupun əqidə və amalını ifşa ruporuna çevrilən marş və himn kimi janrlardan da istifadə edilirdi. Azərbaycan tənqidi realizmi klassik irsə, xalq şeirinə yeni ədəbi nəzərlərlə yanaşaraq dördlük, beşlik, altılıq, yeddilik kimi klassik şeir şəkillərinə uyğun öz yeni məzmunlu əsərlərini yazır, xüsusilə, ayrı-ayrı klassik söz ustadlarının əsərlərinə olan müraciətlərlə nəzirə, təhzil və ya perifraz adlandırılan janrlardan da istifadə edirdilər. Bu da qeyd edilməlidir ki, *"Molla Nəsrəddin"də dərc edilmiş əsərlərin hamısı satirik üslubda deyil. Burada bir çox xüsusiyyətləri ilə satirik şeirdən tamam fərqli olan "ciddi" lirik əsərlər də vardır"*[76]. Bizim də fikrimizcə, əvvəla, "Molla Nəsrəddin"ə və ümumən tənqidi realizmə yalnız satiranın başdan-başa yer aldığı bir ədəbi təlim və ya cərəyan kimi yanaşmaq doğru deyil. Çünki artıq Cəlul Məmmədquluzadənin özünün də dediyi kimi, *"burda yazılanları daha çox zarafat hesab ediblər, bəlkə də ciddidən-ciddi yazılıbdır*"[77]. Bundan başqa özünün ayrıca janrları olan və müxtəlif ədəbi növləri əhatə edən bir sahə olması satiranın ayrıca bir ədəbi növ kimi də səciyyələndirilməsi barəsində tədqiqatlara da yol verilmişdir[78].

Tənqidi realist satirik şeiri janr baxımından üç yerə - 1. ənənəvi poetik janrlarda yazılmış əsərlər; 2. realist satiralar; 3. ədəbi parodiyalar - ayırmaq olar. Bunu da nəzərə almaq lazımdır ki, özlərinəməxsus ideya-məfkurə və estetik tələblər səviyyəsinə uyğun olaraq tənqidi realizmin böyük ustadı Cəlil Məmmədquluzadə ilk nömrədən başlayaraq tənqidi realist şeirlər də ortaya qoymuşdur. Bu şeirlər çox peşəkar yazılmasa da, tənqidi realizmin estetikasına uyğun yeni şeir yaradıcılığı yolunu sərgiləyirdi. Düşüncənin milli mahiyyətindən, xalqa enməklə inkişafa ucalmaq missiyasıına uyğun olaraq tənqidi realistlər klassik ənənələrə söykənir, xalqın çoxəsrlik yaradıcılıq ənənələrini yaşadırdılar. Hətta tənqidi realist şeirin nəhəng nümayəndəsi M.Ə.Sabir də deyəcəkdi ki: *"Məncə, yeni fikirləri və yeni mövzuları mütləq əski formada və əruz bəhrlərində vermək və yazmaq lazım,*

---

[76] Ağayev, İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri [seçilmiş məqalələr] / İ.Ağayev. – Bakı: Elm, – 2008, – s.344.

[77] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.4. – 2004. – s.68.

[78] Həbibbəyli, İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik / İ.Ə.Həbibbəyli. – Bakı: Nurlan, – 2007. – 696 s.

*həm də vacibdir. Bunları birdən-birə dəyişib oxucunu ədəbiyyatdan yadırğatmaq və soyutmaq olmaz”*[79].

Birinci paraqrafın **“Tənqidi realist ədəbiyyatda bədii nəsr və hekayə janrı”** adlanan ikinci bəndində tənqidi realist bədii nəsr və hekayə janrı haqqında bəhs edilmişdir.

Dünya xalqlarının ədəbiyyatında olduğu kimi, fikrimizcə, Azərbaycan ədəbiyyatında da tənqidi realizm məhz bədii nəsrdə, xüsusilə hekayə janrında özünü bütün səciyyəsi və imkanları ilə əks etdirmişdir. Özünəməxsus janrlara malik olan Azərbaycan nəsrinin inkişafı tarixində hekayə xüsusi əhəmiyyət və fəallığa malik olmuşdur. Bunu da məxsusi olaraq vurğulamaq olar ki, konkret olaraq hekayə janrı Azərbaycan bədii nəsrinin inkişafı tarixində tənqidi realist ədəbiyyatda xüsusi əhəmiyyət qazanaraq daha fəal bədii janra çevrilmiş və bütün səciyyəsilə yenidən müəyyənləşmişdir. *“Molla Nəsrəddin” jurnalı isə “bədii nəsrin, satirik-yumoristik nəsrin inkişafında müstəsna rol oyna”mışdır*[80]. XIX əsrin ortalarındakı realizm, o cümlədən bədii təhkiyə, dil, obrazın təqdimi və təsviri və digər zəruri məsələlər artıq əsrin sonu və yeni əsrin əvvəllərinə doğru bədii nəsrindəki vəziyyətindən keyfiyyətcə tamam fərlənirdi. Belə ki, *“XIX əsrin sonu – XX əsrin əvvəllərinə doğru meydana gələn bədii nəsrdə təhkiyə folklor üslubundakı kimi nağılvari, sadə və anlaşıqlı bir tərzdə özünü əks etdirirdi. Xalq yumorundan məharətlə istifadə olunur, tənqid hədəfləri yumorun gücü ilə tənqid və ifşa edilirdi. Lirizmlə yumor birləşir, tənqidi düşüncənin təsir gücünü artırırdı”*[81]. Bu bədii üsul ümumi ictimai inkişafdan geri qalan, azadlıq və istiqlaliyyətdən məhrum xalqı silkələyir və oyatmağa xidmət edirdi. Obrazlar və hadisələr bədii ideyanın və ədəbi təsirin həlledici vasitəsi olaraq daha konkret, dəqiq, təsirli şəkildə təqdim edilirdi. Obrazlar və hadisələrdə tipikləşdirmə, habelə təfərrüatlı və portret tipli təqdim başlıca yer alırdı. Bədii ədəbiyyatın kameral təqdim metodunda cəmiyyətin sinifləşməsi və təbə-

---

[79] Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir. – Bakı: Şərq–Qərb, – c.2. – 2004. – s.302.

[80] Məmmədov, Ə. Azərbaycan bədii nəsri (XIX əsrin sonu-XX əsrin əvvəlləri) / Ə.Məmmədov. – Bakı: Elm, – 1983. – s.6.

[81] Qasımov, R.A. Azərbaycan tənqidi realist bədii nəsrində hekayə janrı // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, ictimai-humanitar elmlər seriyası, – 2020. №3, – s.197.

qələrə ayrılması prosesi nəzərə çarpırdı. Belə demək olarsa, ədəbiyyat sinifləşirdi: onsuz da sinfləşmiş ədəbiyyat yuxarı təbəqələr üçün yazılmaq və onları oyandırmaq üçün olan missiyasını geniş xalq kütlələrinə üzünü çevirməklə onların taleyi və xoşbəxtliyi nəzərindən ideallara yanaşmaq metodu və mahiyyəti kəsb edirdi. Ədəbiyyatda bədii təhlil metodu sosial mahiyyət kəsb etməklə daha çox sosial məsələləri əhatələndirdi və həmçinin müraciətin ünvanı və tərzini dəyişdi. Ədəbiyyatın idealını və ideyasını artıq sadə adamların taleyi və gələcək vəziyyətləri müəyyənləşdirdi. Sadə xalqın taleyi və gələcəyi fonunda ümumən Vətənin taleyi və tarixi inkişafı məsələsi ümumiləşdirildi. Bu nəzərlələ də cəmiyyətin müxtəlif tərəfləri və təbəqələrinə nəzər salındı: hətta Vətənin tarixi taleyi konsepsiyasından geniş xalq kütlələrinin taleyi və həyatına, ayrı-ayrı təbəqələrin nümayəndələri və müxtəlif peşə adamlarının mövcud düşüncəsi və davranışlarına nəzər yetirildi.

Sadə əhvalat və süjet əsasında müəyyənləşən, əsas mətləbləri yığcam həcm daxilində ifadə etməyə qabil hekayə janrı əsas müraciət obyekti olaraq sadə xalq nümayəndələrini seçən tənqidi realistlər üçün vacib janra çevrildi. Sadə, savadsız avam camaata ünvanlanan və maarifləndirici, milli oyanış funksiyası həyata keçirən bu janrın aktuallığı, söz yox ki, çevik formada yığcam şəkildə olması ilə əlaqədar idi.

Xalq həyatı, onun arzu və idealları, çətinlikləri və gerilikləri, istiqlalı və oyanışı kimi vacib məsələləri aktuallaşdırmaqla Azərbaycan ictimai fikir tarixinə doğan tənqidi realizm cərəyanı və nümayəndələri *"adi əhvalatlarda gizlənən böyük həqiqətləri"*[82]. Adi əhvalatlarda böyük həqiqətlər çatdırmaq və xalqı oyandırmaq məqsədilə dövrün daha az zaman aparan və yığcam şəkildə ən sürətli oxunmaq və dinlənmək imkanına malik çevik janrlarına müraciət etdilər ki, bu sırada nəsrdə hekayə, publisistikada felyeton, poeziyada isə xırda satirik şeirlər əsas yeri tuturdular. Azərbaycan tənqidi realizminin banisi, bayraqdarı və onun ideoloqu olan görkəmli ədib Cəlil Məmmədquluzadə 1894-cü ildə yazdığı "Danabaş kəndinin əhvalatları" əsərindən başlayaraq bədii nəsrin inkişafına yeni vüsət və bədii keyfiyyət qazandırdı. Görkəmli ədibin 1903-cü ildə böyük istedad və ictimai-

[82] Hüseynov, F.C. Adi əhvalatlarda böyük həqiqətlər / F.C.Hüseynov. – Bakı: Gənclik, – 1977. – 184 s.

yumoristik pafosla yazılmış “Poçt qutusu” hekayəsi böyük fikir adamı M.Şahtaxtılının təşəbbüsü ilə “Şərqi-rus” qəzetində nəşr edilməklə Azərbaycan milli tənqidi realizminin *“manifestinə çevrildi”*[83]. Ədibin “Usta Zeynal”, “İranda hürriyyət”, “Qurbanəli bəy”, “Quzu”, “Saqqallı uşaq” və bir sıra kiçik hekayələri də tənqidi realist nəsrin ən sanballı nümunələri kimi yeni bədii nəsrin inkişafına vüsət vermiş oldu. Bu hekayələr özünün sadəliyi, asan, oxunaqlı və anlaşılan dili, kompozisiya quruluşu, süjet və həyat həqiqətlərini əks etdirən hadisə və obrazları ilə ədəbiyyat tarixində yeni ənənələr formalaşdırdı. Təsadüfi deyil ki, böyük ustad C.Məmmədquluzadə Azərbaycan ədəbiyyatında *“kiçik hekayənin böyük ustadı”*[84] kimi xatırlanmışdır. Bu ənənələr zənginləşərək Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, M.S.Ordubadi, Ü.Hacıbəyov kimi görkəmli nümayəndələri ortaya çıxarmış və Azərbaycan bədii nəsrinə hekayə janrının “Qırx dənə baqqal”, “Şahqulubəyin nəvəsi”, “Ramazan” [M.S.Ordubadi], “Bomba”, “Mirzə Səfər” [Ə.Haqverdiyev], “Şaqqulunun xeyir işi”, “Cənnətin qəbzi”, “Millətpərəstlər”, “Xanın qəzəbi” [Y.V.Çəmənzəminli] və b. kimi ədəbi yaddaşa məhək daşı kimi yazılan gözəl bədii əsərləri bəxş etmişdir. *“Bu əsərlərin hər birində Azərbaycan xalqını mill inkişafdan geri qoyan səbəblər birər-birər təqdim olunaraq göstərilmiş, tənqidi realist düşüncənin təhlili ilə satira, yumor və gülüşə məruz qalmış, islah olunma zərurəti ortaya çıxarmış, inkişaf və yeni düşüncə ideyasını aktuallaşdırmışdır”*[85].

Dissertasiyanın dördüncü fəsli **“Azərbaycan tənqidi realizminin bədii ifadə və üslub xüsusiyyətləri”** adlanmışdır. Fəslin **“Tənqidi realist üslub və Sokrat metodu”** adlanan birinci paraqrafında tənqidi realist üslubun nüvəsində dayanan Sokrat metodu və onun bədii ifadə texnikası təhlil edilmişdir. Məlumdur ki, Sokrat metodunun mahiyyətini mühakimə etmə və məntiqi hökmə - qənaətə gəlmə texnikası təşkil etmişdir. Buna görə də həyatı və ya varlığı mühakimə

---

[83] Qarayev, Y.V. Realizm: sənət və həqiqət / Y.V.Qarayev. – Bakı: Elm, – 1980. – 259 s.

[84] Həbibbəyli, İ.Ə. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Ə.Həbibbəyli. – Bakı: Elm, – 2019. – s.433.

[85] Qasımov, R.A. Azərbaycan tənqidi realist bədii nəsrində hekayə janrı // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, ictimai-humanitar elmlər seriyası, – 2020. №3, – s.201.

etmə biliyi verən bu metod Azərbaycan tənqidi realizminin nüvəsində dayanan əks etdirmə metodudur. Özünəməxsus mühakimə və tənqid texnikasına malik olan Sokrat metodu tənqidi realizmin üslubunda əsaslı yer alaraq varlığın  bədii dərkində başlıca rol oynamışdır. Bundan başqa Sokrata xüsusi rəğbət bəsləyən C.Məmmədquluzadənin tale, həyat və aqibətlə bərabər, ideya-təlim və metod yaxınlıqları da məxsusi olaraq diqqət çəkir. Sokratın maarif və öyrənməni sadə insanlara və bütün fərdlərə endirmək ənənəsinə rəğbət bəsləyən tənqidi realizmin banisi C.Məmmədquluzadə də "kiçik adam"lara, cəmiyyətin bütün təbəqələri və fərdlərinə müraciət etməyi ictimai inkişaf və milli oyanışın məğzi bilmişdir. Sokratın mühakimə texnikasında sadə ana dilinin rolu tənqidi realizmin də poetexnikasında birincilik təşkil etmişdir. Sokrat öz mühitinin adamlarını "afinalılar" deyə ümumiləşdirdiyi kimi, Azərbaycan tənqidi realizmində də tipik şəraitin tipik nümayəndələri "danabaşlılar", "veyilabadlılar", "dəccalabadlılar", "marallar" kimi ümumiləşdirici obrazlarla təqdim edilmişlər. Sokrat təlimi yeni yaşayışa uyğun bilik vermə məqsədi daşıdığı kimi, tənqidi realizmin də bədii məqsədini XX əsrin əvvəlləri ciddi ictimai-tarixi şəraitdə dünyanın müasir çağırışlarına hazır olmaq üçün insanları oyatmaq funksiyası həyata keçirmişdir. Tənqidi realist üslubda monoloqlar, dialoqlar, tapmacalar, atalar sözləri, teleqram, poçt xəbərləri, hekayələr və s. Sokrat metoduna uyğun tərzdə qurulmuş, bilikvermə, oyatma funksiyası həyata keçirmişdir. Sokratın təlim metodu "at milçəyi" adlandırıldığı kimi, Azərbaycan tənqidi realizminin də ədəbi üslubu, hətta gizli imza fəaliyyəti "mozalan", "neştər", "lağlağı", "sicimqulu", "kefsiz", "dılı", "hophop" və b. adlarla adlandırılaraq tənqidiliyini ehtiva etmişdır.

Fəslin **"Tənqidi realistlərin yaradıcılığında ana dili məsələsi və dildən istifadə manevrləri"** adlanan ikinci paraqrafında tənqidi realizmin yaradıcılıq dili və dildən istifadə manevrləri məsələsi elmi təhlildən keçirilmişdir.

Xalqın qayğıları və milli oyanışı məsələsini yaradıcılıq idealına çevirən tənqidi realizm birbaşa və asan şəkildə xalqa xitab elmək və maarifləndirici ədəbi missiya həyata keçirmək üçün sadə ana dilində yazmışdır. Sadə, analaşılan xalq dilində yazıb-yaradan tənqidi realistlər həm də tənqidi realist ədəbi mühakimə və ifşa məqsədini də ana dilinin tənqidəaçıq cümlə sintaksisi, modelləri və leksikasında həyata

keçirmişdir. Özünəməxsus cümlə sintaksisi istifadə edən tənqidi realizm həm asan başa düşülən, həm nöqsanları gülmək yolu ilə nəzərə çatdıran sintaktik modellərlə bədii dili zənginləşdirmişlər. Tənqidi realist leksika da məhz cərəyanın metoduna uyğun tənqid funksiyasını həyata keçirməyə imkan verən leksika üzərində qurulmuşdur. Tənqidi realist poetexnikada enantiosemiya hadisəsi tənqid və ifşa məqsədini həyata keçirməyə yönəlik daha da zənginləşdirilmişdir. Tənqidi realist ifadədə konkret insani davranış, duyğu və düşüncələr daha yığcam bədii ifadələrlə dəqiq ifadə edilmək imkanı qazanmışdır. İnsanların ictimai laqeydliyi "mənə nə", maddiyyatçılıq və nəfsaniliyi "canımsan", nifrət və acıq hissləri "bəh-bəh" və bu kimi digər enantiosemik ifadəliliklə əksini tapmışdır. Tənqidi realizmin dilində işlədilən "sevdiyim, qəlb, sər, vəsfi-xəyal, dilbər, çərxi-sitəmkar, çərxi-fələk" və s. kimi söz və ifadələr klassik Azərbaycan poeziyasında lirik şeirdə özünəməxsus məzmun-məna kəsb etdiyi halda, satiriklərin dilində eynən işlədilən bu kimi söz və ifadələr artıq gülüş, tənqid, ifşa, ələ salma  mahiyyəti kəsb edir, yeni məna-məzmun ortaya qoyurdu. Tənqidi realist əsərlərdəki "hürriyyət", "zırrama" və bu qəbildən olan başqa çoxsaylı lüğəvi vahidlər dərin və geniş ictimai-siyasi məzmun kəsb etməklə dövrün mənəvi-psixoloji problemini əks etdirirdi. Tənqidi realizmin "Yazıq ana!", "Yazıq vətən!" kimi üslubi ifadə kəşfləri milli faciənin bədii yaradıcılıqdakı ən tutarlı yığcam və ibarəli ehtiva fomulu idi. Tənqidi realizmin sintaksisi də özünəməxsusluq kəsb edərək daha çox sadə cümlə modellərindən istifadə edilir, xarakterin həm bilik səviyyəsini, həm də hal-əhvalını, psixoloji vəziyyətini göstərmək baxımından ellipsislərdən istifadə edilmişdir. Bundan başqa tənqidi realizmin dilində sözləri özünəməxsus mənalandırıb izah etmək və məxsusi olaraq təhrif edilmiş fonetik qabığa salma bədii üsulundan da istifadə geniş yer almışdır. "Molla Nəsrəddin"in dilində "Oğarişşev", "Məmdəli", "Stolıpin" və b. xüsusi isimlərdən istifadə manevrləri edilir, bir tərəfdən tənqid edilən şəxsin adını eynən işlətməkdən uzaq qaçır, habelə onunla bağlı tənqid və ifşa mətləbini ortaya qoyurdular.  Adı yeni məzmunda təhrif etməklə tənqidi ifşa ortaya qoymaq da tənqidi realizmin dilində özünəməxsusluq kəsb edir: "Bəqaüş-şeytənə", "Meynəli şah" və b. adi sözlərə, leksik vahidlərə siyasi-ictimai məzmun verilməsi də tənqidi realizmin dil manevrlərindən idi: adam hesab eləmək; əl-ələ vermək; bir-birinin

əlindən yapışmaq, birləşmək, fikir etmək kimi sözlər də bu qəbildən idi. "Təpik-təpik bayramı" özünəməxsus adlandırmadan istifadədə məhz bu cür ictimai-tənqidi mənalandırma özünə yer almışdır. "Yazıq ana!", "Yazıq ana dili!", "Yazıq vətən!" kimi sadə, yüksək hiss, emosionallıq ifadə edən sintaktik konstruksiyaların işlənməsi də tənqidi realizm üçün xasdır. Tənqidi realist üslubda özünü ifşa etmə texnikası da məhz özünüöymə modelində həyata keçirilmiş, sosial qrupların özündənrazı mənəvi nöqsanları məhz fəxriyyə tipli şeir və ifadələrlə reallaşdırılmışdır. Oyadıcı, bilikverici funksiyanın leksik-qrammatik göstəricisi olaraq isə bədii dildə, poetik ifadəlilikdə "mən" şəxs əvəzliyi və ümumşəxsli cümlə quruluşları üstünlük təşkil etmişdir.

Dordüncü fəslin ikinci paraqrafının **"Tənqidi realist ədəbiyyatda monoloq"** adlanan bəndində monoloqların xarakteroloji mahiyyəti tədqiq edilmişdir. Xarakter yaratmaq, tipik şəraitdə tipik varlıqları əks etdirmək ənənəsinə sahib olan tənqidi realist üslubda bədii xarakter və ya tipin məqsəd, niyyət və mənəviyyatının açılmasında monoloqlar da üslubi poetexnika olaraq xüsusi əhəmiyyət kəsb etmişdir. Sokratın metoduna uyğun olaraq monoloqlar da bədii dil faktı kimi "alayetmə, doğurtma və hökmçıxarma" (vicdanın səsi – R.Q.) mərhələlərini özündə birləşdirərək oxucunun qəlbindəki həqiqəti üzə çıxarmaq niyyətini həyata keçirmişdir. Məhəmmədhəsən əminin, Gülbaharın, İsgəndərin, Molla Abbasın və b. obrazların monoloqları özünün mühakiməedici xüsusiyyəti və ayıldıcı keyfiyyətlərilə xüsusilə diqqəti cəlb edir. *"Monoloqları həm məzmun, həm də poetik quruluş etibarilə yazıçının bədii məqsədini özündə ehtiva edən bir kod, açar, hərəkətverici, istiqamətləndirici vasitə, maarifləndirici həmlə hesab etmək olar. Buraya qədər olan hadisə və əhvalatlar məhz düşüncə həmləsinə sövq edilmiş oxucunun hadisələri saf-çürük etməsilə səciyyələnir, tamaşaçının monoloqun ətrafında düşünməsinə yol açır"*[86].

Monoloqlar mənfi tiplərin də xarakter və niyyətlərinin açılması üçün mükəmməl üsuldur. Şeyx Nəsrullahın yığcam monoloqu da mənfi tipin qüsurlu tərəflərini tanıtmaq işinə xidmət edir. Bu bədii ifadə imkanına dayanaraq satirik-mollanəsrəddinçi poeziyada

[86] Qasımov, R.A. C.Məmmədquluzadənin dramlarında monoloqların bədii-struktural mahiyyəti // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, – 2021. c.17, № 1. – s.122.

M.Ə.Sabirin, Ə.Nəzminin, Ə.Qəmküsarın, M.S.Ordubadinin və başqalarının yaradıcılığında monoloqlar şəklində ifadə edilən şeir nümunələri də başlıcalıq təşkil etmişdir. Monoloji üslubda qurulan "Xoş ol zaman", "Zaman ol zaman idi", "Dedilər", "Oyanmadım", "Nolar şirinməzaq etsə məni həlvayi-hürriyyət", "Amalımız, əfkarımız ifnayivətəndir", "Övradımız, əzkarımız əfsaneyi-zəndir", "Qorxuram", "Mən belə əsrarı qana bilmirəm", "Satıram" "Qoyma gəldi", "Ürəfa marşı" və başqa şeirlər ictimai mətləbləri tənqid və ifşa edən monoloji şəkildə yazılmış əsərlərdəndir. "Kəndli deyir ki", "Bakılı deyir ki", "İnteligentlər deyir ki", "Millət deyir ki" tipli kiçik şeir nümunələri də monoloji tipli satirik örnəklər olaraq tənqidi realist poeziyada aparıcılıq təşkil etmiş, fərdin öz-özünü ifşası kimi bədii rol oynamışdır. *"...bu tipli monoloqları, müəyyən mənada, "ideya partlayışı" kimi də səciyyələndirmək olar. Bu da gözdən yayına bilməz ki, belə monoloqlar, əsasən, əsərin onunda yer alır, əsərin başlıca ideyasını təlqin etməyə xidmət edir və tamaşaçını, oxucunu düşünməyə və müəyyən nəticəyə gəlməyə sövq edir"*[87].

İkinci paraqrafın ikinci bəndi olan **"Tənqidi realist ədəbiyyatda dialoq"** adlı bənddə dialoqların xarakteroloji xüsusiyyətləri tədqiq edilmişdir. Dili fərdiləşdirmə vasitəsinə çevirən tənqidi realizm Sokratik metodun mühakimə və açıqlama texnikasının imkanlarına uyğun olaraq xüsusi sual-cavab texnikası, dialoji nitq modeli ilə xarakter və tiplərin açılması üçün əsərə vacib bədii keyfiyyətlər qazandırmışdır. Tənqidi realist əsərlərdə tipin mükəmməl və müfəssəl xarakterini, onun hərtərəfli səciyyəsini təqdim etmək üçün müəllif təhkiyəsi ilə yekunlaşmayaraq həm də personajların nitqinə, o cümlədən monoloq və dialoqlara da əhəmiyyətli yer verlirir ki, buna bədii mətndə xarakteroloji nitq deyilir[88]. Hətta elə əsərlər haqqında bəhs etmək olar ki, onlar məhz dialoqlar üzərində qurulmuşdur. C.Məmmədquluzadənin "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət" və başqa hekayələrində, "Ölülər", "Danabaş kəndinin məktəbi", "Danabaş kəndinin müəllimi", "Anamın kitabı", "Dəli yığıncağı", "Lənət",

---

[87] Qasımov, R.A. C.Məmmədquluzadənin dramlarında monoloqların bədii-struktural mahiyyəti // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, – 2021. c.17, № 1. – s.122.

[88] Məmmədova, Z.Ş. Bədii mətndə xarakteroloji nitq və onun ifadəsi problemləri: / fil. e. dok. dis. avtoreferatı. / – Bakı, 2011. – s.3.

Ə.Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları", "Mirzə Səfər", "Diş ağırısı", "Mozalanbəyin səyahətnaməsi", Y.V.Çəmənzəminlinin "Cənnətin qəbzi", "Şahqulunun xeyir işi" və başqa əsərlərdə maraqlı, yaddaqalan dialoq örnəkləri vardır. M.Ə.Sabirin "Sual-cavab", "Olmur, olmasın", "Bura say", "Əhvalpürsanlıq və ya qonuşma", "Bakıda bir kənddə mühavirə", "Rəməzan söhbəti", Ə.Qəmküsarın "Şeytan fəhləsi", "Sual-Cavab", M.Ə.Möcüzün "Oğul və Ana", "Hələ uşaqsan", "Onun nə axirəti xoş olar, nə dünyası", "Onu", "Lazımdır", Ə.Nəzminin "Gimnaziyada (molla və şagirdlər)", "Gülüşmə (molla və mürid)", "Hitlerdən əlaltılarına" kimi satirik şeir nümunələrində, o cümlədən "Sual", "Sual-cavab" tipli şeir örnəklərində dialoq tənqidi realizmin ədəbi-estetik səciyyəsinə uyğun olaraq həm tiplərin, həm də ictimai problem və mühitin səciyyələndirilməsi baxımından mühüm funksiya həyata keçirmişdir. Xudayar bəylə Qazının, Məhəmmədhəsən əmi ilə naçalnikin, Zeynəb ana ilə polisin, Novruzəli ilə Vəli xanın, Usta Zeynalla Qurbanın, Məhəmədəli ilə Pərinisənin, üç qardaş – Rüstəm Mirzə, Mirzə Məhəmmədəli və Səməd Vahidin və b. obrazların dilaoqları yığcam replikalara sığdırılmış vacib informasiya zənginliyi və özünəməxsus mühakimə texnikasını əks etdirmiş, dialoqlardakı nəticə çıxartma – hökmvermə imkanları əsərin və yazıçının bədii məqsədinin açılmasına zəruri imkanlar açmışdır. Dialoqlar mühakimedici bədii əksetdirmənin başlıca ifadə ehtiyacına çevrildiyinə görədir ki, təkcə bədii nəsr və dramaturgiyada deyil, tənqidi realist şeir texnikasında da dialoqlar üzərində ifşaedici şeirlər baçlıcalıq təşkil etmişdir. M.Ə.Sabirin, Ə.Nəzminin, Ə.Qəmküsarın, M.Möcüzün dialoqlu satirik şeirləri ictimai-bədii tənqidi həyata keçirməkdə xüsusi fəallıq təşkil etmiş və ədəbi mübarizədə ən fəal silah kimi istifadə olunmuşdur. Mühakimə texnikası dialoqlarda daha uğurla həyata keçirildiyinə görə tənqidi realist üslubda öncüllük təşkil etmiş, həm bədii, həm də publisistik tənqidin tərzinə çevrilmişdir. *"Dialoqlar xarakteroloji funksiya həyata keçirərək tipin və ya hadisənin, problemin bütün mahiyyət və təfərrüatını, ictimai məna və bədii funksiyasını aşkara çıxarmağa imkan yaradan vasitə kimi geniş yarar kəsb etmişdir. Buna görə də tənqidi realist əsərlərdə, poeziya, nəsr və dram olmasından asılı olamayaraq dialoqlardan geniş səviyyədə faydalanılmış, yaddaqalan dialoq örnəkləri ortaya qoyulmuşdur. Tiplərin və tipik bədii varlıqların əsl mahiyyətinin açılmasında*

*özünəməxsus bir struktur olaraq dialoqlar mühüm fayda ortaya qoymuşdur"*[89].

Dördüncü fəslin **"Tənqidi realist ədəbiyyatda metaforik obrazlar və fərdi özünəməxsusluqlar"** adlanan üçüncü paraqrafında tənqidi realizmdəki metaforik obrazlar və nümayəndələrin fərdi özünəməxsusluqları təhlil edilmişdir.

*"Tənqidi realizmin poetikasında başqa ədəbi cərəyanlardan fərqli olaraq bədii əsərin strukturuna özünəməxsus yanaşma və həssas münasibət mövcud olmuşdur. Romantizmdən fərqli olaraq tənqidi realizm bədii əsərin struktur və detallarına həssaslıqla yanaşmış, konkret məqsəd və ideya üçün məna yükü vermişdir"*[90]. Bədii əsərə ideoloji-tərbiyəvi tezisdən yanaşan tənqidi realistlər üçün əsərin hər bir hissəsi bədii-estetik əhəmiyyət daşıyırdı. Vaxtilə Cəlil Məmmədquluzadə özü də bu barədə bəhs edərkən yazırdı ki: *"Hər yazıçının bir mətləbi var, yoxsa bu işlər bihudə deyil..."*[91].

Tənqidi realizmin poetikasında, bədii əsərlərin strukturunda müxtəlif tipikləşdirilmiş, simvolik, hətta metaforik obrazlardan istifadə edilməsi geniş hal alan bir məsələ idi [Bu məsələdə məxsusi olaraq C.Məmmədquluzadənin yaradıcılığı birincilik və fərqlilik qazanır – R.Q.]. Tənqidi realist əsərlərdə nəinki insan obrazları, mükəmməl xarakterlər yaradılır, həmçinin tarixi, lokal şəraiti daha konkret və canlı təsvir üçün həyat və məişət şəraiti, konkret əşyalar təsvir edilir, ictimai mühitin konkret vəziyyətini təsvir etməyə imkan verən tənqidi-simvolik və metaforik obrazlar yer alırdı. Bu kimi obrazlaşdırma həm də fərdi özünəməxsusluq kimi də təzahür tapmışdır. Bu məsələdə tənqidi realizmin bayraqdarı Cəlil Məmmədquluzadənin özünəməxsus və daha kamil yaradıcılıq tərzi var idi. Bizim tədqiqatlarımıza görə, böyük ədibin "Danabaş kəndinin əhvalatları" povestində "uzunqulaq", "dəyənək", "qara cildli kitab", o cümlədən bir sıra pyes və əsərlərində yer alan şallaq, "Xanın təsbehi" əsərində təsbeh, "Yan

---

[89]Qasımov, R.A. Tənqidi realist ədəbiyyatda dialoq: xarakteroloji və bədii struktural əhəmiyyəti // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, ictimai-humanitar elmlər seriyası, – 2022. c.8, №3, – s.184.

[90] Qasımov, R.A. Cəlil Məmmədquluzadə realizminin poetikasındakı bəzi obrazların bədii-estetik xüsusiyyətləri haqqında // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, – 2021. c.17, №3, – s.149.

[91] Məmmədquluzadə, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c.4. – 2004.– s.511.

tütəyi” əsərində yan tütəyi, “Anamın kitabı” əsərində kitab, “İranda hürriyyət” və “Cənnətin qəbzi” əsərlərində Pərinisənin və Usta Ağabalının yuxuları və orada yer alan anlayışlar, “Qurbanəli bəy” hekayəsində at axuru, “Poçt qutusu”nda poçt qutusu, “Xortdanın cəhənnəm məktubları”nda cəhənnəm və b. özünün fikir-məna ifadəliliyi baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Azərbaycan tənqidi realizmində bədii əsərin strukturu, detalları, dili, obrazlar sistemi və sairə ideya və tənqidi mühakimənin aparılması üçün vacib ünsürləri təşkil edirdilər. Bu baxımdan artıq bəhs edildiyi kimi, əsərdə bədii dil, o cümlədən cümlə sintaksisi, leksik-semantik tərkib də olduqca əhəmiyyətli rol oynayır, hətta əsərdəki bir sıra əşya obrazları və hadisələr də bədii-estetik don, ideya-estetik əhəmiyyət kəsb edirlər. Fikrimizcə, tənqidi realist əsərlərdə rast gəldiyimiz uzunqulaq, dəyənək, şallaq, təsbeh, yantütəyi, Danabaş kəndi, Veyilabad, Zurnalı, İtqapan, Qurbağalı və b. bədii detallar ciddi ədəbi-estetik səciyyə ortaya qoyur. Tənqidi realistlər bu kimi detallarla mövcud inzibati-siyasi sistem və yeni inkişaf tələblərinin mühüm məsələlərini obrazlaşdıraraq tənqidi mühakimə işi həyata keçirir, ictimai inkişafın obrazlaşmış mühakiməsini həyata keçirmişdir. Tənqidi realist əsərlərdə yazıçılar ən incə detallarla hər bir obrazı, qəhrəmanı və yardımçı əşyanı ictimai quruluş və şəraitin və onun ünsürlərinin simvoluna çevirərək tənqidi münasibət mənimsədirdilər. Təqdir etdiyimiz bu kimi obrazların hər birinin özünəməxsus məna yükü və estetik mahiyyəti var. Fikrimizcə, yeni elmi-texniki inkişaf əsrinin tələblərini, milli birlik, həmrəylik və ümumdünya kontekstində bərabərləşmə ideyası çərçivəsində poçt qutusu rabitə, anlaşma mənasını, “Usta Zeynal” əsərində küpə milli dəyərlər və düşüncə sisteminin boxçası, “Qurbanəli bəy” hekayəsində at axuru, Mehman Qaraxanoğlunun da doğru izah verdiyi kimi, məzar, qəbir kimi[92] və sair anlaşıla, izah edilə bilər. Dəyənək, şallaq Xudayar bəy, Pirverdi kimi zalım məmurların əlində güc və hakimiyyətin simvolu kimi təzahür tapmış və zülüm yolu ilə kütləni idarə edən *“dirijor çubuğu”*[93] adlandırılmışdır.

---

[92] Qaraxanoğlu, M.Q. Mirzə Cəlil yanğısı / M.Q.Qaraxanoğlu. – Bakı: Mücrü, – 2020. – s.208.
[93] Qarayev, Y.V. Realizm: sənət və həqiqət / Y.V.Qarayev. – Bakı: Elm, – 1980. – s.210.

**“Nəticə”**də tədqiqat işində əldə edilmiş əsas nəticələr ümumiləşdirilmişdir:

1. İnsana münasibətin yeni ictimai-iqtisadi münasibətlər daxilində fərqli və yeni məzmun kəsb etməsi ilə düşüncə tərzində də dəyişmə zərurəti meydana çıxaran ictimai tələblər ədəbi-bədii müstəvidə də özünü təzahür etdirərək baş verən ciddi tarixi, ictimai-siyasi, inqilabi hadisələr fövqündə tənqidi realizmi özünəməxsus yaradıcılıq texnikasına malik olan bir ədəbi cərəyan kimi meydana çıxarmışdır;

2. Tənqidi realizm ədəbi cərəyanının adlandırılması və izahındakı dolaşıqlıq onun bədii əksetdirmə metodu kimi əsaslandığı tənqidi realizm idrak metodunun mahiyyətindən irəli gəlmişdir. Tənqidi realizm ədəbi cərəyanının ədəbi missiyası və bədii məqsədi sözün məzmununda tənqidi təhlil və dərkin üstün olduğu islahatçılıq təşkil edir;

3. Tənqidi realist poetikada insan problemi ictimai münasibətlər daxilində bütün sosial məzmunu və davranış təzahürləri ilə əks etdirilmiş, yeni ictimai-tarixi münasibətlər müstəvisində tərbiyəsi məsələsi aktuallığa çevrilmişdir. Bu mənada tənqidi realist ədəbiyyatda insan ictimai inkişafın hərəkətverici qüvvəsi kimi obrazlılıq tapmışdır;

4. Tənqidi realizm şifahi xalq ədəbiyyatı və klassik ədəbi ənənələrinə söykənərək şifahi ədəbiyyatın janr imkanları, xalq gülüşü və onun tənqid texnikasından məharətlə yararlanmış, şifahi xalq ədəbiyyatı və klassik irsdəki tənqidi düşüncəyə söykənərək XX əsrin milli tənqidi düşüncəsini formalaşdırmışdır;

5. Tənqidi realizm özünün tənqidi idrak və əksetdirmə metoduna uyğun olaraq məxsusi janrlar sistemi formalaşdırmış, tapmaca, səyahətnamə, atalar sözləri, məktub, teleqram və ya poçt qutusu, felyeton, hekayə, satirik qəzəl, şeir nümunələri, habelə klassiklərə satirik məzmunda nəzirələr, parodiyalar kimi örnəklər yaratmış və ədəbiyyatın satirik-yumoristik tərzdə tənqidi dərk tərəfini zənginləşdirmişlər;

6. Tənqidi realist poetikada təhkiyə və süjet özünəməxsus yer tutmuşdur. Psixoloji, sosial realizmi inkişaf etdirməklə süjet xəttinin orijinallığına fərqləndirici əhəmiyyət vermiş, xüsusilə sonu hadisələrin daxili məntiqinə uyğun gəlməyən, gözlənilməyən sonluqla bitən süjet texnikasından faydalanmışlar;

7. Tənqidi realist poetikada Sokrat metodu tənqidiliyin mahiyyətini təşkil etmiş, dildə və əksetdirmə texnikasında möhkəm sistemə malik mühakimə texnikası əks etdirmişdir. Tənqidi realist poetikada

bədii dil tənqidi mühakimə poetexnikasına malik olmuş, məntiqi nəticəyə gəlmə – hökm çıxarma texnikası və bilikvermə funksiyası həyata keçirmişdir. Bədii dilin lüğət fondu, cümlə sintaksisi və modelləri, monoloq və dialoqlar ideyanın açılması, ictimai həqiqəti bədii dərk – bilikvermə vasitəsinə çevrilmişdir;

8. Tənqidi realizmin struktur poetikasında xüsusi məna yükünə malik bədii obraz səviyyəli detallardan istifadə edilmiş, uzunqulaq, təsbeh, yantütəyi, şallaq, qamçı, küpə kimi detallara ictimai-tənqidi məna yükləmişdir;

9. Azərbaycan tənqidi realist sənətkarları yaradıcılıq fərqlilikləri və özünəməxsusluqlarına malik olmuşlar. Azərbaycan romantizmi tənqidi realizmə meyil göstərdiyi kimi, tənqidi realizm də romantizmə meyil sərgiləyərək özünəməxsusluq qazanmışdır.

**Dissertasiya işinin əsas müddəaları aşağıdakı monoqrafiya, kitab, məqalə və tezislərdə əks olunmuşdur:**


1. Qasımov, R.A. Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası / R.A.Qasımov, Z.H.İsmayıl. – Bakı: Elm və Təhsil, – 2017. – 192 s.
2. Qasımov, R.A. Naxçıvan ziyalıları Azərbaycan mətbuatında (XX əsrin əvvəlləri) / R.A.Qasımov. – Naxçıvan: Əcəmi, – 2017. – 120 s.
3. Qasımov, R.A. Naxçıvan ədəbi mühiti: problemlər, perspektivlər / R.A.Qasımov. – Bakı: Elm və təhsil, – 2018. – 232 s.
4. Qasımov, R.A. Azərbaycan ədəbiyyatında tənqidi realizmin mərhələsi və banisi // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, –2013. № 1. – s.164-173.
5. Qasımov, R.A. Arazboyu Nahçivan arazilerinde edebi-medeni, ilmi muhit ve nahçivanlı ziyalıların faaliyetleri // I “Araz hövzəsi” beynəlxalq simpoziumunun materialları, – İstanbul: – 05-08 iyul, 2013, – s.196-203.
6. Qasımov, R.A. Azərbaycan ədəbiyyatında azərbaycançılıq məfkurəsi // “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda VI beynəlxalq elmi konfransın materialları, – Bakı: – 5-7 may, – 2015, – s.106-109.

7. Qasımov, R.A. XIX əsrin sonu–XX əsrin əvvəllərində Naxçıvanda məktəbdarlıqda M.T.Sidqi və C.Məmmədquluzadənin rolu // "Tarih ve Kültür ekseninde Orta Aras Havzası" mövzusunda beynəlxalq simpoziumun materialları, – Ankara: – 17-19 noyabr, – 2018, – s.727-739.

8. Qasımov, R.A. Azərbaycan tənqidi realizmində üslub və ana dilindən istifadə // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. № 1. – s.167-172.

9. Qasımov, R.A. Görkəmli tənqidi realist ədib Cəlil Məmmədquluzadə yaradıcılığında Sokrat və Sokrat metodu // – Naxçıvan: AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalı, – 2018. №1. – s.40-46.

10. Qasımov, R.A. Azərbaycan tənqidi realizmini yaradan ictimai-tarixi səbəblər // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası, – 2018. № 1. – s.89-93.

11. Qasımov, R.A. Azərbaycan tənqidi realizmində istiqlal düşüncəsi və müstəqillik ideyası // Gənc tədqiqatçıların II Beynəlxalq konfransının materialları, – Bakı: – 27-28 aprel, – 2018. – s.1227-1230.

12. Qasımov, R.A. Azərbaycan tənqidi realizmində milli düşüncə konsepsiyası və azərbaycançılıq ideyası // AXC-nin 100 illiyinə həsr olunmuş "Müsəlman Şərqində ilk parlamentli respublika" mövzusunda beynəlxalq elmi konfransın materialları, – Bakı: – 21-23 may, – 2018, – s.347-351.

13. Qasımov, R.A. Azərbaycan tənqidi realizmi və şifahi xalq ədəbiyyatı // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2019. № 1. – s.165-171.

14. Qasımov, R.A. Azərbaycan milli tənqidi realizmi və klassik irs əlaqələri // – Naxçıvan: NDU-nun Elmi əsərləri. – 2019. – c.2. № 1. – s.60-64.

15. Qasımov, R.A. Tənqidi realist şeirin banisi Cəlil Məmmədquluzadənin yaradıcılığında xalq şeiri şəkilləri və ənənələri // Gənc tədqiqatçıların III beynəlxalq konfransının materialları, – Bakı: – 29-30 aprel, – 2019, – s.1181-1183.

16. Qasımov, R.A. Azərbaycan tənqidi realist bədii nəsrində hekayə janrı // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, İctimai-humanitar elmlər seriyası, – 2020. – №3. – s.196-202.

17. Qasımov, R.A. XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvanda ədəbi mühit və tənqidi realist ədəbiyyatin təşəkkülü // "Naxçıvan: Mədəniyyətlərin qovuşduğu məkan" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın materialları, – Naxçıvan: Əcəmi, – 22-23 oktyabr, – 2021, – s.228-233.

18. Qasımov, R.A. Əbdürrəhimbəy Haqverdiyevin tənqidi realizmi // "Əl-Fərabi" 9-cu Beynəlxalq sosial fənlər konfransının materialları, – Naxçıvan: "Əl-Fərabi" nəşr evi, – 2-4 may, – 2021, s.101-102.

19. Qasımov, R.A. Yazıçı və ictimai xadim Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında milli istiqlal və cümhuriyyət məsələsi // III "Qarabağ" sosial və humanitar elmlərdə müasir tədqiqatlar beynəlxalq konqresinin tezisləri, – Bakı: "İKSAD" yayınevi, – 7-10 iyun, – 2022, – s.157-158.

20. Qasımov, R.A. Mirzə Ələkbər Sabirin yaradıcılığında tənqidi realizm // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, İctimai və humanitar elmlər seriyası, – 2022. – c.18. №1, – s.176-184.

21. Qasımov, R.A. Cəlil Məmmədquluzadə yaradıcılığında milli mücadilə və istiqlal motivləri // "Türk dünyasında milli mücadilə və ədəbiyyat" beynəlxalq simpoziumunun materialları, – Ankara: Türk Dil Qurumu yayınları, – 12-15 aprel, – 2022, – s.375-381.

22. Qasımov, R.A. Azərbaycan tənqidi realizmində "kiçik" adam obrazları // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, Humanitar elmlər seriyası, – 2023. – c.19. №1, – s.128-134.

23. Gasimov, R.A. Idea of National Independence and Republic in Critical Realism of Azerbaijan // Path of Science, İnternational electronic scientific journal. – 2023. vol. 9. No12. – p.7001-7007.

24. Gasimov, R.A. Dialogue in critical-realist literature: characterological role and artistic-structural significance // – AD ALTA, Journal Of Interdisciplinary Research, – 2023. vol.13. – is.2. – special is. XXXVIII, – p.147-150.

25. Gasimov, R.A. The artistic-structural essence of monologues in the dramas by Jalil Mammadguluzade // – Bukhara: Scientific reports of Bukhara State University, – 2024. № 2. – p.126-132.

26. Gasimov, R.A. National critical realism of Azerbaijan and classical literary heritage relations // – Budapesht: The scientific heritage, – 2024. № 131, – pgs.38-42.

Dissertasiyanın müdafiəsi "27" fevral 2025-ci il tarixində saat 12[30] da AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1073. Bakı, Hüseyn Cavid pr. 117, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "21" yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.12.2024
Kağızın formatı: $60\times84^{1/16}$
Həcm: 84795 işarə
Tiraj: 100